

ƏDLİYYƏ

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 01 - yanvar 2020



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 01 - yanvar 2020**

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**



BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib.....4
“20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....6
Şəhidlər xiyabanını ümumxalq ziyarəti.....7

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.....10




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ədliyyə Nazirliyində 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimi keçirilib.....10
Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Fərmanın icrası üzrə tədbirlər davam etdirilir.....12
Müsabiqədə uğur qazanmış hakimliyə namizədlərlə tədris kursları başlanıb.....15
Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər.....16
"Könüllülər ili" çərçivəsində Ədliyyə Nazirliyində gənclərlə görüş keçirilib.....17
Ədliyyə orqanları tərəfindən 2019-cu ildə görülmüş işlər müzakirə olunub.....21
Toğrul Musayev. Ədalət mühakiməsinə əlçatanlığın təmin olunması dayanıqlı inkişafa xidmət edir.....29
Hakimlərin Seçki Komitəsinin məlumatı.....33
Ədliyyə Akademiyasında spiker hakimlər üçün təlim keçirilib.....34
Ədliyyə Nazirliyi ilə Azərbaycan Banklar Assosiasiyası arasında görüş keçirilib.....34
Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq səmərə verir.....35

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Vəkillər üçün təlim keçirilib ........ 36
Ədliyyə işçiləri xüsusi qayğıya ehtiyacı olan uşaqlara baş çəkiblər ........ 36

## MƏQALƏ

Nazim Abbasov. 20 Yanvar hadisələri heç zaman yaddaşlardan silinməyəcək ........ 37
Rauf Rzayev. Hüzn, qəzəb və qürur günü ........ 40

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ........ 43

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1852 Tiraj:1100 ədəd



# Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib

**Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib.**

Müşavirədə giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı 2019-cu ilin ölkəmiz üçün uğurlu il olduğunu, qarşıya qoyulan bütün vəzifələrin uğurla icra edildiyini və dayanıqlı inkişafın təmin olunduğunu bildirib. Dünyada gərginliyin artdığı bir dövrdə Azərbaycanın sabitlik məkanı kimi inkişafını və bu sabitliyin əsas təminatçısının Azərbaycan xalqı olduğunu, ötən illər ərzində ölkəmizin çox böyük inkişaf yolu keçdiyini və bu gün Azərbaycanın dünya miqyasında güclü ölkələr sırasında olduğunu diqqətə çatdırıb.

Qeyd edib ki, keçən il beynəlxalq mövqelərimiz daha da möhkəmlənib, Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilib, il ərzində ölkəmizə 40-dan çox dövlət və hökumət başçısı səfər edib, həm ikitərəfli formatda, həm də beynəlxalq tədbirlərdə iştirak üçün. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur və bu əlaqələr keçən il daha da möhkəmlənib. Dövlətimizin başçısı həmçinin, Azərbaycana Avropa İttifaqı Şurasının prezidentinin səfərini, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Qoşulmama Hərəkatının, Dünya dini liderlərinin zirvə görüşlərinin, UNESKO-nun Dünya İrs Komitəsinin sessiyasının ölkəmizdə yüksək səviyyədə keçirilməsini xatırladıb, Vaşinqtonda keçirilmiş astronavtika sahəsində ən mötəbər tədbir olan Dünya Astronavtika Konqresi çərçivəsində qəbul olunmuş qərara əsasən konqresin 2022-ci ildə Azərbaycanda keçirilməsini çox önəmli, böyük hadisə, ölkəmizin qələbəsi kimi dəyərləndirib.

Prezident İlham Əliyev hərbi potensialımızın da möhkəmləndiyini qeyd edərək Azərbaycan Ordusunun hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdə olduğunu söyləyib, ötən il iqtisadi sahədə böyük müsbət nəticələrin əldə edildiyini, 2019-cu ilin həm siyasi, iqtisadi, sosial, həm də kadr və struktur islahatları

sahələrində dərin islahatlar ili olduğunu vurğulayıb.

Bildirib ki, keçən il iqtisadi sahədə əldə edilmiş nəticələr qənaətbəxşdir. Ümumi daxili məhsul 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı isə 14 faiz artıb. Həmçinin, kənd təsərrüfatında artım təxminən 7 faiz, habelə inflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olub. Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artaraq rekord həddə - 51 milyard dollara çatıb və adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir.

Vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində xəzinəyə plandan əlavə 1 milyard manat vəsait daxil edildiyini diqqətə çatdıran Prezident İlham Əliyev bunun nəticəsində həyata keçirilən geniş sosial paketin 4,2 milyon insanı əhatə etdiyini və vətəndaşların maddi vəziyyətinin yaxşılaşdığını vurğulayıb. Bildirib ki, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılıb.

Ötən il həmçinin, uğurlu iqtisadi siyasət nəticəsində sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib, məktəblərdən 50-si modul tiplidir. Elektrik enerjisi sahəsində "Şimal-2" elektrik stansiyası istismara verilib. Ölkəmizdə qazlaşdırma 96 faizə çatıb.

Dövlətimizin başçısı yol tikintisinə, ötən il baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılmasına, dağıntıya məruz qalmış evlərin təmir və bərpa olunmasına, yenilərinin tikilməsinə toxunub, Azərbaycanda mülkiyyətin sığortalanması prosesi ilə bağlı çox böyük maarifləndirmə işlərinin aparılmasının zəruriliyini bir daha diqqətə çatdırıb.

2019-cu ildə TANAP qaz kəmərinin istismara verilməsini tarixi nailiyyət adlandıran Azərbaycan Prezidenti həmçinin TAP layihəsinin icra səviyyəsinin 90 faizi keçdiyini və bu il TAP-ın nəzərdə tutulmuş vaxtda istismara veriləcəyinə əminliyini ifadə edib.

Çıxışında turizmin inkişafına diqqət çəkən ölkə başçısı ötən il turistlərin səfərlərinin rekord həddə çatdığını - 3 milyon 170 min xarici qonağın ölkəmizə gəldiyini bildirib və turizmin inkişafının bundan sonra da diqqət mərkəzində olacağını, bütövlükdə Azərbaycanın 2020-ci ildə qeyd olunan uğurlar yolu ilə gedəcəyini vurğulayıb.

Sonra müzakirələr aparılıb, maliyyə naziri Samir Şərifov dövlət büdcəsinin əsas parametrləri və bu il görüləcək işlər haqqında, Baş nazirin müavini Şahin Mustafayev ölkəmizin xarici ticarət əlaqələri barədə, Mərkəzi Bankın sədri Elman Rüstəmov bu il inflyasiyanın proqnozlaşdırılması, əlavə funksiyaların icrası nəticəsində bank sektorunda dəyişikliklər barədə, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev 2020-ci ildə ünvanlı sosial yardımın verilməsi və Özünüməşğulluq proqramı, bu sahədə Dünya Bankının fəaliyyəti haqqında, iqtisadiyyat naziri Mikayıl Cabbarov bu ilin iqtisadi inkişafla bağlı proqnozları, kiçik və orta biznesin inkişafı barədə, kənd təsərrüfatı naziri İnam Kərimov kənd təsərrüfatı sahəsində görülən işlər və subsidiyalar haqqında, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev isə ötən il gömrük sahəsində görülən və qarşıda duran işlər barədə məlumat veriblər.

Müzakirələrdə dövlətimizin başçısı xarici borcun daha da azaldılması, qonşu dövlətlərlə həm ikitərəfli, həm üçtərəfli formatda əməkdaşlığın diqqətdə saxlanılaraq bütün infrastruktur layihələrin icra edilməsi, bank sektoru tərəfindən daha çox real sektorun dəstəklənməsi və biznes kreditlərinin verilməsində yeni mexanizmlərin tətbiqi, kölgə iqtisadiyyatından çıxmaqla bağlı bütün qurumların fəal işləməsi və burada çox ciddi koordinasiya aparılması, ictimai ödənişli iş yerləri ilə bağlı pozuntuların qarşısının alınması mexanizmlərinin işlənilməsi, şəhid ailələri və Qarabağ əlilləri üçün cari ildə daha çox evlərin tikilməsi, qeyri-neft ixracının uzunmüddətli strategiyasının işlənilməsi, kiçik və orta biznesə dəstəyin artırılması, icrası davam edən layihələrin başa çatdırılması, emal müəssisələrinin çoxaldılması, gömrük-keçid məntəqələrinin işinin səmərəli təşkili və vətəndaş məmnunluğunun təmin olunması ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verib.

Müşavirəyə yekun vuran Prezident İlham Əliyev Ermənistanın baş nazirinin öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən guya Ermənistanın bir çox parametrlər üzrə Azərbaycanı qabaqlaması ilə bağlı fərziyyəsinin bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirməklə növbəti yalan olduğunu vurğulayıb, istər beynəlxalq aləmdə, irimiqyaslı qlobal layihələrin həyata keçirilməsində, istər sosial-iqtisadi, hərbi, idman sahələrində Azərbaycanın Ermənistandan qat-qat öndə olduğunu konkret faktlarla təsdiq edib.

Dövlətimizin başçısı 2020-ci ildə Azərbaycanın uğurla inkişaf edəcəyinə və ölkəmizin daha güclü dövlətə çevriləcəyinə əminliyini ifadə edib.

## 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən otuz il keçir. Xalqımız indiyədək bu faciənin ağrı-acısı ilə yaşayır.

1987-ci ilin sonlarında yenidən ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Keçmiş Sovet İttifaqının iki respublikası arasında başlanan bu münaqişə XIX-XX yüzilliklərdə ermənilərin Azərbaycan torpaqlarında ardıcıl məskunlaşdırılması, habelə xalqımıza qarşı məqsədyönlü şəkildə aparılmış etnik təmizləmə və soyqırımı siyasətinin növbəti mərhələsi idi.

Ermənistan SSR-in respublikamıza ərazi iddialarına, radikal erməni millətçiləri tərəfindən qızışdırılan separatizmə və soydaşlarımız əleyhinə törədilən kütləvi zorakılıqlara SSRİ rəhbərliyinin bilavasitə və ya dolayısı ilə dəstək verməsi, habelə Azərbaycanın o zamankı rəhbərlərinin cinayətkar qətiyyətsizliyi və milli maraqlara zidd addımları xalqımızı respublikanın ərazi bütövlüyünün qorunması naminə ayağa qalxmağa sövq etdi. Beləliklə, respublikada geniş sosial spektrli xalq hərəkatı yarandı və proseslərin gedişi onun tədricən milli azadlıq hərəkatına çevrilməsinə zəmin yaratdı.




Azərbaycan xalqının haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini hiddətlə ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi, əslində, sovet totalitar rejiminin süqutunu daha da sürətləndirən müdhiş cinayətə əl atdı. Mərkəzi hakimiyyət 1990-cı il yanvar ayının 19 dan 20-nə keçən gecə beynəlxalq hüquq normalarını və ölkə qanunlarını büsbütün tapdalamaqla, əhalini xəbərdar etmədən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinə başladı. Sovet Ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində paytaxtda dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Həmin qətliamdan bir gün sonra, yanvarın 21-də xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru dünyanın mütərəqqi qüvvələri də qətiyyətlə pislədi.

Azərbaycanda vaxtında dərindən araşdırılmayan və adekvat qiymətini almayan faciəyə yalnız bir neçə il sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994 cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli

azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.

Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur. Ölkəmizin ərazi bütövlüyü, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş həmvətənlərimizin - günahsız Qanlı Yanvar qurbanlarının əziz xatirəsini bir daha dərin hüznlə yad edərək, faciənin otuzuncu ildönümü ilə əlaqədar, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimləri keçirilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planını hazırlasın və onun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 dekabr 2019-cu il*

# Şəhidlər xiyabanını ümumxalq ziyarəti

## Prezident İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər.**

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səslənib.

***




Qanlı Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 30 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur,





öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinin üzərinə sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Məhz ümummilli lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pislədi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı, SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Vaxtında dərindən araşdırılmayan və lazımi qiymətini almayan faciəyə yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir. Faciənin otuzuncu ildönümü ilə əlaqədar Azərbaycanda və dünya-





nın müxtəlif ölkələrində silsilə anım mərasimləri, sərgilər, konfranslar keçirilib, bu qanlı qırğın, eləcə də Azərbaycan xalqının müstəqillik əzminin sarsılmazlığı bütün dünyaya çatdırılıb. Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il dekabrın 13-də "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" Sərəncam imzalayıb. 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik mübarizəsində yeri və rolunun xüsusi vurğulandığı həmin Sərəncamda deyilir: "1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar".



Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.

***

Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad ediblər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev iştirak ediblər.

# Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub





Yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilib, hüzn əlaməti olaraq dövlət bayraqları endirilib.

Qanlı Yanvar faciəsinin otuzuncu ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planına uyğun olaraq, respublikanın bütün şəhər və rayon, kənd və qəsəbələrində, idarə və təşkilatlarında 20 Yanvar hadisələri ilə bağlı anma mərasimləri keçirilib. Yüz minlərlə insan yanvarın 20-də səhər saatlarından başlayaraq Şəhidlər xiyabanını ziyarət edib, qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə qərənfillər düzüblər.

---

# Ədliyyə Nazirliyində 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimi keçirilib

**Xalqımızın müstəqillik uğrunda mübarizliyinin və şücaətinin təcəssümü olaraq milli qürur mənbəyinə çevrilmiş 1990-cı il 20 Yanvar hadisələrindən otuz il ötür. Bununla əlaqədar ölkə Prezidenti İlham Əliyev tərəfindən xüsusi Sərəncam imzalanıb və qəbul olunmuş müvafiq Tədbirlər Planına uyğun olaraq respublikamızda və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir.**



Faciənin ildönümü ilə bağlı ədliyyə orqanlarında anım tədbirləri təşkil olunur, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilir, Ədliyyə Akademiyasında və Penitensiar xidmətin Təlim Mərkəzində xüsusi mühazirələr oxunur, həmçinin Qanlı Yanvar qırğınından bəhs edən sənədli filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilir.

Davam edən tədbirlər çərçivəsində Ədliyyə Nazirliyində 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimi keçirilib.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədov, nazir müavin-
















ləri və nazirliyin kollektivi, həmçinin gənc ədliyyə işçiləri və könüllülər, vətəndaş cəmiyyəti nümayəndələri iştirak ediblər.

Anma mərasimində mərkəzi hakimiyyətin beynəlxalq hüquq normalarını və ölkə qanunlarını büsbütün tapdalamaqla o müdhiş gecədə sovet qoşununun iştirakı ilə həyata keçirdiyi hərbi təcavüz nəticəsində dinc əhaliyə divan tutulduğu, yüzlərlə insanın qətlə yetirildiyi bildirilib, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Vurğulanıb ki, qətliamın ertəsi günü ümummilli lider Heydər Əliyev ölkəmizin Moskvadakı nümayəndəliyinə İlham Əliyevlə gələrək bu kütləvi qırğınla bağlı kəskin bəyanatla çıxış edib və yalnız bir neçə il sonra Ulu Öndərin təşəbbüsü ilə faciəyə ilk dəfə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu tarixi gün barədə əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə geniş çatdırılması, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin və əlillərin sosial müdafiəsinin gücləndirilməsi üzrə məqsədyönlü addımlar atılır. Azərbaycanın Birinci-vitse prezidenti Mehriban Əliyeva və rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən bu sahədə mühüm işlər həyata keçirilir.

Mərasimdə Qanlı Yanvar faciəsinə həsr olunmuş film nümayiş etdirilib, həmin hadisələr üzrə respublika istintaq qrupunun üzvü olmuş nazirliyin İstintaq idarəsinin rəisi Nazim Abbasov və qanlı hadisələrin şahidləri, ədliyyə naziri yanında İctimai Komitənin üzvləri, vətəndaş cəmiyyəti təmsilçiləri Səadət Bənənyarlı, Əliməmməd Nuriyev və Əhməd Abbasbəyli faciə ilə bağlı xatirələrini ədliyyə işçiləri ilə bölüşüblər.

Çıxışlarda qırğın zamanı xalqımızın haqq-ədalətinin bərqərar edilməsi uğrunda küçələrə çıxmış neçə-neçə insanların yaralanması və qəddarcasına qətlə yetirilməsi barədə konkret faktlar səsləndirilib, bu qanlı aksiya zamanı insan hüquqlarına dair çoxsaylı beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan hüquqları Bəyannaməsinin tələblərinin kobud şəkildə pozulduğu, hadisələrlə bağlı sonralar başlanmış cinayət işinin istintaqı aparılarkən qaranlıq qalan bir çox məqamlara aydınlıq gətirildiyi, dinc əhaliyə qarşı əli silahlı ordudan istifadə etməklə hərbi cinayət törədilməsinin tam sübuta yetirildiyi diqqətə çatdırılıb.

Tədbirdə ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış həmvətənlərimizin əziz xatirəsinin hər bir azərbaycanlının qəlbində əbədi yaşayacağı bildirilib.

***

Hər il olduğu kimi, 20 yanvar - ümumxalq hüzn günündə ədliyyə işçiləri xalqımız üçün müqəddəs and yerinə çevrilmiş qəhrəman Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanını ziyarət ediblər.

# Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Fərmanın icrası üzrə tədbirlər davam etdirilir






**Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafının mühüm "yol xəritəsi" olmaqla onun icrası üzrə ardıcıl tədbirlər görülür.**

Ötən dövrdə Fərmanın icrası çərçivəsində yeni ixtisaslaşmış məhkəmələrin təşkili, cəza siyasətinin humanistləşdirilməsi, mülki prosessual qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə qərarlarının icrası və məhkəmə ekspertizası fəaliyyətinin yaxşılaşdırılması, habelə onların alternativ mexanizmlərinin, o cümlədən özəl icra və ekspertiza qurumlarının yaradılması və digər məsələlərlə bağlı 40-dək normativ aktın layihələri hazırlanıb. Artıq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə bir sıra yeni qanunlar qəbul olunub.

Həmçinin hakimlərin sosial müdafiəsi əhəmiyyətli dərəcədə gücləndirilib, məhkəmə fəaliyyətinin təminatı yaxşılaşdırılıb. Hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilələrin qarşısının alınması və s. üzrə mühüm işlər görülüb, o cümlədən məhkəmələrdə nizam-intizamın gücləndirilməsi ilə bağlı yoxlamalar və monitorinqlər intensivləşdirilib, bu məqsədlə Məhkəmə-Hüquq Şurasında "qaynar xətt və monitorinq sektorlar yaradılıb. Ötən müddətdə 50-ə yaxın məhkəmədə monitorinqlər aparılıb, yol verilən pozuntular 100-dən artıq hakimin və məhkəmə sədrinin diqqətinə çatdırılıb, digər tədbirlər görülüb.

Dövlət başçısının Fərmanı ilə artırılmış 200 hakim ştatlarının yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə namizədlərin davamlı və daha çevik seçimi aparılır. Artıq imtahanlarında uğur qazanmış 200-ə yaxın hüquqşünas müsabiqənin növbəti mərhələlərində iştirak edirlər.

Bundan əlavə, iqtisadiyyatın inkişafında vacib rol oynayan sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə yeni regional kommersiya, habelə inzibati məhkəmələr yaradılıb. Onların işinin təşkili üzrə əməli tədbirlər görülüb, o cümlədən ərazi yurisdiksiyası, hakim və aparat işçilərinin ştat sayı müəyyən edilib, infrastruktur məsələləri həll olunub, zəruri avadanlıqla təmin edilib.

Cari ilin əvvəlindən fəaliyyətə başlayan həmin məhkəmələrə dövlət başçısının 30.12.2019-cu il tarixli sərəncamları ilə yüksək nəzəri və praktiki hazırlığa malik, təcrübəli hakimlər təyin olunublar.

Yeni yaradılmış məhkəmələrin hakimləri ilə görüşən ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmə-

dov təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən məhkəmə-hüquq islahatlarının cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsi sisteminin formalaşdırılmasına, insanların hüquqlarının məhkəmə müdafiəsinin etibarlı təmin olunmasına, müraciət imkanları artırılmaqla əlçatanlığın asanlaşdırılmasına xidmət etdiyini bildirib. Məhkəmə sisteminin səmərəliliyinin, vətəndaşların ədalət mühakiməsinə inamının və etimadının artırılmasının hakimlərin fəaliyyətindən bilavasitə asılı olduğunu vurğulayaraq dövlət başçısının bütün məhkəmə sədrlərinə və hakimlərə ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən əməl olunması ilə bağlı verdiyi tövsiyələri diqqətə çatdırıb.

Həmçinin məhkəmə qərarlarının ədalətliliyinin təmin edilməsinin, qanunun tələblərinə ciddi riayət olunmasının, insanlara qayğılı münasibət və layiqli xidmət göstərilməsinin, vətəndaş məmnunluğunun yüksəldilməsinin hakimlərin ən ümdə vəzifəsi olduğu, kobud rəftar, süründürməçilik, sui-istifadə hallarının, qeyri-prosessual münasibətlərin yolverilməzliyi vurğulanıb, hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının qətiyyətlə alınması üzrə görülən tədbirlər qeyd olunub.

Bununla bağlı hər bir qanun pozuntusuna ciddi reaksiya verilməsinin, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin, təşəbbüskarlığın və prinsipiallığın artırılmasının vacibliyi bildirilib.

Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul şəxslərinin iştirak etdiyi görüşdə yeni təyinat almış hakimlərin qayğıları, işin təşkili vəziyyəti ilə maraqlanılıb, ortaya çıxan problemlərin operativ həllinə, qarşıda duran vəzifələrə dair müzakirələr aparılıb. Həmçinin yeni yaradılmış məhkəmələrdə əmək və icra intizamına nəzarətin gücləndirilməsi, məhkəmələrdə mütəmadi yoxlamaların və monitorinqlərin aparılması, vətəndaşların yerlərdə qəbullarının keçirilməsi ilə bağlı və digər konkret tapşırıqlar verilib.





## Vəkillər Kollegiyasının yeni istifadəyə verilmiş Hüquqi Yardım və Tədris Mərkəzi ilə tanışlıq

**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturunun və maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tapşırıqların icrası üzrə əməli işlər görülür, xüsusilə özəl ekspertizanın yaradılması ilə bağlı bir çox normativ aktların layihələri hazırlanıb, zəruri təşkilati tədbirlər həyata keçirilib.**

Eyni zamanda, geniş dinləyici auditoriyasına malik olan Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, tədris işi-



Ədliyyə Akademiyasında yeni yaradılmış Kriminalistik Kabinet ilə tanışlıq



Beynəlxalq media eksperti professor Joan Barata Mir ilə görüş

nin ən müasir metodikalar və İKT-lər tətbiq olunmaqla təkmilləşdirilməsi, peşəkar təlimçilərin hazırlanması və təlimlərə beynəlxalq ekspertlərin cəlb olunması, video-konfrans vasitəsilə distant formada treninqlərin təşkili daim diqqətdə saxlanılıb, ötən il 4.300-dək ədliyyə işçisi, vəkillər, hakimlər, prokurorlar və digər hüquqşünaslar, habelə bələdiyyə üzvü və qulluqçuları icbari təlim, ixtisasartırma və peşə hazırlığı kurslarına cəlb olunublar.

Həmçinin Ədliyyə Akademiyasının maddi-texniki təminatının yaxşılaşdırılması, müasir iş şəraitinin yaradılması üzrə işlər görülür, o cümlədən praktiki təlimlərin keçirilməsi məqsədilə kriminalistika fəaliyyətinə dair avadanlıqla, kriminalistika elminin tarixinə aid əyani və digər vasitələrlə təchiz olunmuş yeni kriminalistik kabinet yaradılıb.

Ədliyyə naziri Fikrət Məmmədov görülən işlərlə və tədris prosesinin təşkili vəziyyəti ilə yerində tanış olmaq məqsədilə Ədliyyə Akademiyasına baş çəkib, hakimlərin və digər hüquqşünasların tədrisinə cəlb olunan təlimçilərlə maraqlanıb, dövlət başçısının məhkəmə hakimiyyətinə ictimai etimadın gücləndirilməsi və şəffaflığın artırılması ilə bağlı tövsiyə və tapşırıqlarına uyğun olaraq məhkəmələrdə media ilə işləyəcək yeni spiker-hakimlərin təliminə dəvət olunmuş nüfuzlu beynəlxalq media eksperti, professor Joan Barata Mir ilə görüşüb, faydalı fikir mübadiləsi aparılıb.

Həmçinin Akademiyada yeni kriminalistik kabinet ilə tanış olunaraq onun hüquqşünasların nəzəri bilik və peşə hazırlığının yüksəldilməsində və praktiki vərdişlərin aşılanmasında əhəmiyyəti qeyd olunub, müvafiq tapşırıqlar verilib.

Bununla yanaşı, Akademiyada əhalinin aztəminatlı təbəqəsinə ödənişsiz hüquqi yardım göstərən Hüquq Klinikasının işi ilə maraqlanılıb. Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov ötən il 630-a yaxın şəxsə pulsuz hüquqi yardım göstərildiyini, Vəkillər Kollegiyası ilə vəkilliyə namizədlərin icbari təlimi və hüquqi xidmətlərin göstərilməsi sahəsində səmərəli əməkdaşlıqda klinikanın fəaliyyətinə vəkillərin cəlb edildiyini qeyd edib.

Nazir bu sahədə işin səmərəliliyinin artırılması, Vəkillər Kollegiyasının yeni yaradılmış Hüquqi Yardım və Tədris Mərkəzi ilə qarşılıqlı fəaliyyətin genişləndirilməsi ilə bağlı tapşırıqlar verib, yenidənqurmadan və əsaslı təmirdən sonra yeni istifadəyə verilmiş həmin Mərkəzə baş çəkərək onun fəaliyyəti və müasir iş şəraiti ilə tanış olub.

Tanışlıq zamanı Vəkillər Kollegiyasının sədri Anar Bağırov ölkə Prezidentinin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22.02.2018-ci il tarixli Sərəncamının icrası çərçivəsində yaradılmış Hüquqi Yardım və Tədris Mərkəzinin fəaliyyəti barədə məlumat verib.

Ölkəmizdə vəkillik institutunun inkişafına dövlət başçısı tərəfindən daim qayğı ilə yanaşıldığını vurğulayan ədliyyə naziri məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair ölkə Prezidentinin mühüm Fərmanının, həmçinin vəkillik fəaliyyətinin təkmilləşdirilməsinə yönəldiyini qeyd edib, vətəndaşların hüquqlarının etibarlı qorunması, keyfiyyətli hüquqi yardımın göstərilməsi sahəsində kollektivə uğurlu fəaliyyət arzulayıb.

# Müsabiqədə uğur qazanmış hakimliyə namizədlərlə tədris kursları başlanıb





**Ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tövsiyə və tapşırıqları daim diqqət mərkəzində saxlanılaraq onların icrası üzrə ardıcıl tədbirlər həyata keçirilir. Məhkəmə fəaliyyətinin müasir çağırışlara uyğun qurulmasında müstəsna əhəmiyyət kəsb edən "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanla bu sahədə qarşıda mühüm vəzifələr qoyulub, habelə hakimlərin iş yükünün azaldılması, işlərə vaxtında və daha keyfiyyətlə baxılması məqsədilə hakim ştatları 200 vahid artırılıb, yeni ixtisaslaşmış məhkəmələr yaradılıb.**

Yeni ayrılmış hakim ştatlarının yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə hakimlərin seçimi üzrə açıq və davamlı müsabiqə elan olunub. Hazırda imtahanlarda uğur qazanmış 150-dək hüquqşünas müsabiqənin növbəti mərhələlərində iştirak edir, o cümlədən 44 nəfər tədris kursuna vəsiqə qazanıb.

Həmin namizədlərin hakimlik fəaliyyətinə hazırlanmaları üçün keçirilən bu kurslarda nüfuzlu yerli və beynəlxalq ekspertlərin iştirakı ilə mühüm və aktual mövzular tədris olunacaq, onlar məhkəmələrdə, həmçinin beynəlxalq təcrübəni öyrənmələri məqsədilə xarici dövlətlərdə staj keçəcəklər.

Ədliyyə Akademiyasında təşkil olunan həmin kursun yanvarın 30-da Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun iştirakı ilə açılışı olub.

Namizədlərə uğurlar arzulayan və zəruri tövsiyələrini verən Ədliyyə naziri ölkəmizdə mütərəqqi məhkəmə islahatının mahiyyətinə dair geniş mühazirə ilə çıxış edib.

Bildirib ki, ölkəmiz ulu öndər Heydər Əliyevin yolu ilə gedərək Prezidenti İlham Əliyevin güclü siyasi iradəsi və yorulmaz fəaliyyəti sayəsində davamlı inkişaf edir və möhkəmlənir.

Dövlət başçısının həyata keçirdiyi çoxşaxəli islahatlar, həmçinin məhkəmə-hüquq sistemini əhatə edir. Ötən dövrdə bu sahədə ardıcıl islahatlar aparılaq məhkəmə sistemi və infrastrukturu müasirləşdirilib, yeni məhkəmələr və məhkəmə təsisatları yaradılıb, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi müəyyən edilib, "Elektron məhkəmə" informasiya sistemi istifadəyə verilib.

Həyata keçirilən islahatlara beynəlxalq maraq artaraq ölkəmizin məhkəmə sistemindəki nailiyyətləri Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülüb, həmçinin Dünya Bankı tərəfindən bu sahədə innovasiyalara görə nominasiyaların qalibi elan olunub.

Nazir ölkə Prezidentinin ədliyyə və məhkəmə sistemi üçün "yol xəritəsi" olan məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair 2019-cu il 3 aprel tarixli Fərmanı ilə bu sahədə islahatların yeni mərhələyə yüksəldiyini vurğulayıb, onun icrası üzrə görülən işləri, o cümlədən vahid məhkəmə təcrübəsinin formalaşdırılması, sahibkarlıq fəaliyyətinə dair

mübahisələr üzrə ayrıca ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı mühüm qanunların qəbul olunduğunu qeyd edib, qarşıda duran mühüm vəzifələri diqqətə çatdırıb.

Ədalət mühakiməsinin səmərəliliyinin, vətəndaşların inam və etimadının artırılmasının hakimlərin fəaliyyətindən bilavasitə asılı olduğu vurğulanıb. Məhkəmə sistemində nəzəri və peşə hazırlığı ilə yanaşı, mənəvi cəhətdən saflığına, həmçinin ədalətliliyinə və qərəzsizliyinə, insanlara qayğılı münasibətinə görə fərqlənən şəxslərin təmsil olunmasının xüsusi vacibliyi, bu yüksək amalların daim uca tutulmasının zəruriliyi bildirilib.

Sonra kurs İspaniyadan olan beynəlxalq ekspert, hüquq professoru Juan Barata Mirin iştirakı ilə məhkəmə fəaliyyətində şəffaflığın təmin edilməsi və onun etik aspektləri, düzgün kommunikasiya strategiyası, habelə təqsirsizlik prezumpsiyasına məsələləri üzrə seminarla davam etdirilib. Geniş təqdimat keçirilib, bu sahələrdə hakimliyə namizədləri maraqlandıran suallar cavablandırılıb.

# Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq nazirliyin rəhbərliyinin bölgələrdə mütəmadi səyyar qəbulları keçirilir.**



Yanvarın 10-da ədliyyə naziri Fikrət Məmmədov Qusar rayonu Heydər Əliyev Mərkəzində Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan vətəndaşları qəbul edib.

Nazir müavinləri Vilayət Zahirov yanvarın 15-də Salyan rayonunda Salyan, Neftçala, Şirvan, Cəlilabad və Biləsuvar, Toğrul Musayev yanvarın 17-də Kürdəmir şəhərində Kürdəmir və ətraf, Eldar Nuriyev həmin gün Masallı şəhərində Masallı, Lənkəran, Lerik və Yardımlı, Ceyhun Həsənov yanvarın 18-də İmişli rayonunda İmişli, Beyləqan, Füzuli, Saatlı və Sabirabad, Azər Cəfərov isə yanvarın 31-də Şamaxı şəhərində Şamaxı, Qobustan, İsmayıllı, Ağsu və Göyçay rayonlarından olan vətəndaşları qəbul ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Nazirliyin aidiyyəti məsul işçilərinin iştirakı ilə keçirilən qəbullarda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, onların bir qismi yerindəcə öz həllini tapıb, digərlərinin isə operativ şəkildə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşlar bölgələrdə yerli sakinlərin qəbulu və müraciətlərinə baxılması ilə bağlı ölkə Prezidenti tərəfindən yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər.

Bölgələrə səfər çərçivəsində nazirliyin rəhbərliyi tərəfindən ədliyyə orqanlarının və məhkəmələrin işi ilə tanış olunub, yerli və ətraf rayonların ədliyyə işçiləri və hakimlərlə müşavirələr keçirilib.

Müşavirələrdə ölkə Prezidentinin məhkəmə-hüquq

islahatlarının dərinləşdirilməsinə dair 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə görülən işlərdən bəhs olunub, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, özəl məhkəmə ekspertizası institutunun tətbiqi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, sahibkarlıq fəaliyyətinə dair mübahisələr üzrə ayrıca ixtisaslaşmış məhkəmələrin yaradılması ilə bağlı mühüm qanunların qəbul olunduğu vurğulanıb. Yeni regional inzibati və kommersiya məhkəmələrinin bu ilin əvvəlindən fəaliyyətə başlaması nəzərə alınaraq dövlət başçısının 30.12.2019-cu il sərəncamları ilə artıq həmin məhkəmələrə hakimlərin təyinatının aparıldığı qeyd olunub, qarşıda duran vəzifələrə, o cümlədən qanunvericilikdəki yeniliklərin dürüst və vaxtında icrasının təmin olunmasına dair aidiyyəti tövsiyə və tapşırıqlar verilib.

Eyni zamanda, tədbirlərdə dövlət başçısının şəffaflığın təmin olunması, dövlətə və xalqa, vətəndaşlara layiqli xidmət göstərilməsi ilə bağlı tələbləri xüsusilə diqqətlə çatdırılaraq insanlara daim qayğı və həssaslıqla yanaşılması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması vurğulanıb, etik davranış qaydalarına dönmədən əməl olunmasının, sui-istifadə hallarının və korrupsiyanın yolverilməzliyinin ən ümdə vəzifə olduğu bildirilib.

# "Könüllülər ili" çərçivəsində Ədliyyə Nazirliyində gənclərlə görüş keçirilib



**Müasir Azərbaycan gəncliyinin hərtərəfli inkişafı, dövlət gənclər siyasətinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Gənclərə daim qayğı ilə yanaşan Ulu Öndər tərəfindən bu sahədə mühüm qanunvericilik və institusional tədbirlər görülüb, Gənclər və İdman Nazirliyi yaradılıb, 1996-cı ilin 2 fevral tarixində Azərbaycan Gənclərinin I Forumu keçirilib, Ümummilli Liderin Sərəncamı ilə Gənclər günü təsis olunub. Dövlət orqanlarının diqqətini gənclərlə bağlı problemlərin həllinə yönəltmək məqsədilə "Dövlət gənclər siyasəti" haqqında Fərman və xüsusi Qanun qəbul olunub.**

Gənclərlə aparılan məqsədyönlü işlər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə davamlı olaraq həyata keçirilərək, 2007-ci il Azərbaycanda "Gənclər ili" elan olunub, müvafiq normativ hüquqi baza təkmilləşdirilib, dövlət proqramları və "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq edilib.

Bu gün ölkəmizdə sağlam düşüncəli, mənəvi cəhətdən saf və dövlətçilik ideyalarına sadiq, vətənpərvər yeni nəsil formalaşır, gənclərin cəmiyyətdə fəallığı, idarəetmədə rolu artır, onlara mühüm rəhbər vəzifələr etibar olunur, seçkili orqanlarda iştirak üçün geniş imkanlar yaradılır.

Son illər gənclərimizin həyat tərzinə çevrilmiş, insanları vahid niyyət ətrafında birləşdirən, cəmiyyət və dövlətin birgə fəaliyyətinin uğurlu formatı olan könüllülər hərəkatı geniş vüsət alıb, ölkə başçısının təşəbbüsü ilə "Könüllü fəaliyyət haqqında" Qanun qəbul olunub, müxtəlif təşkilatlarda, eləcə də hüquq mühafizə orqanlarında, o cümlədən "ASAN Könüllüləri" şəbəkəsində on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb.











Gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2019-cu il 30 dekabr tarixli Sərəncamı ilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilib.

"Könüllülər ili" və 2 fevral - Azərbaycan gəncləri günü münasibətilə yanvarın 31-də Ədliyyə Nazirliyində 100-dən çox gənc əməkdaşlar, könüllülər və istehsalat təcrübəsinə başlayacaq Bakı Dövlət Universitetinin hüquq fakültəsinin tələbələri ilə görüş keçirilib.

Tədbirdə Ədliyyə, Gənclər və İdman nazirlərinin müavinləri, BDU-nun Hüquq fakültəsinin və bir sıra qeyri-hökumət təşkilatlarının rəhbərləri iştirak ediblər.

Gənc ədliyyə işçiləri və könüllüləri əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək, önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Görüşdən öncə ədliyyə sahəsində dövlət gənclər siyasətinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Çıxış edən ədliyyə nazirinin müavini Toğrul Musayev gəncləri nazir Fikrət Məmmədovun adından qarşıdan gələn bayram münasibətilə təbrik edib, Ümummilli Liderin dövlət gənclər siyasətindən və möhtərəm Prezidentimiz tərəfindən gənclərlə bağlı aparılan davamlı işlərdən bəhs edib, bu ilin "Könüllülər ili" elan olunmasını dövlət başçısının Azərbaycan gəncliyinə dəstəyinin və etimadının növbəti təzahürü olduğunu vurğulayıb, ölkə rəhbərinin bu yaxınlarda Davos İqtisadi Forumu çərçivəsində keçirilən panel iclasında Azərbaycanda gənclər və könüllü fəaliyyətlə bağlı səsləndirdiyi çox önəmli fikirləri iştirakçıların diqqətinə çatdırıb. İstedadlı gənclərin dəstəklənməsində, onların innovativ potensiallarının və bacarıqlarının üzə çıxarılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm fəaliyyətini xüsusilə qeyd edib.

Ədliyyə orqanlarında gənclərlə, o cümlədən könüllülərlə aparılan işin səmərəli təşkilindən bəhs edən nazir müavini gənclərin işlə təminatına daim diqqətlə yanaşıldığını, ötən dövrdə şəffaf müsabiqələr əsasında əksəriyyəti gənclər olan 3.000-ə yaxın şəxsin qulluğa qəbul edildiyini, hazırda ədliyyə orqanları işçilərinin təxminən yarısını, nazirliyin əksər xidmətlərinin kadr korpusunun 70 faizə qədərini isə qulluğa qəbul edilən yeni nəsil ədliyyə işçiləri təşkil etdiyini bildirib.

Məmnunluqla qeyd olunub ki, bu gün 200-dən çox yüksək nəzəri biliyə və peşə hazırlığına malik gənc ədliyyə işçiləri vəzifədə irəli çəkilərək hakimiyyətin hər üç qolunda məsul və rəhbər vəzifələrdə təmsil olunurlar.

Nazirlik tərəfindən, həmçinin tələbələrin istehsalat təcrübəsi keçmələrinə xüsusi önəm verildiyi, son 5 ildə ali təhsil müəssisələrinin 1.700-dən çox tələbəsinin ədliyyə orqanlarında və məhkəmələrdə təcrübə keçdiyi diqqətə çatdırılıb. Hazırda Bakı Dövlət Universitetinin hüquq fakültəsinin, habelə SABAH qruplarında təhsil alan daha 420 nəfər tələbənin fevral-may aylarında istehsalat təcrübəsi keçmələri nəzərdə tutulur.



Eyni zamanda, ölkə gənclərini ədliyyə fəaliyyəti ilə yaxından tanış etmək və işləməyə həvəsləndirmək, məşğulluğunun təmin olunmasına şərait yaratmaq və ədliyyə orqanlarının kadr ehtiyatını formalaşdırmaq məqsədilə könüllülük institutunun geniş təşviq olunduğu, bu məqsədlə nazirliyin Kollegiyası tərəfindən 2016-cı ildə "Ədliyyə orqanlarında könüllülər institutunun təşviqi üzrə əlavə tədbirlər barədə" xüsusi qərar qəbul edildiyi, ölkəmizin ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələr qurulduğu qeyd olunub.



Vurğulanıb ki, ölkə başçısının ötən ilin fevralında gənclərlə keçirdiyi respublika toplantısında verdiyi tapşırıqlara və çağırışlara uyğun olaraq gənclərin ədliyyə sahəsində könüllü fəaliyyətə daha geniş cəlb olunması məqsədilə tədbirlər planı təsdiq edilib, ədliyyə orqanları və könüllülər arasında münasibətləri tənzimləyən nümunəvi müqavilə, həmçinin müraciət formaları hazırlanıb. Nazirliyin internet saytında xüsusi bölmə yaradılaraq zəruri məlumatlar yerləşdirilib və könüllülərə birbaşa elektron qaydada müraciət etmək imkanları yaradılıb. Onların müvafiq reyestri aparılaraq, bu institutun təşviqi üzrə zəruri tədbirlər görülür.



Ali təhsil müəssisələri ilə əlaqələr genişləndirilərək, tələbələrlə mütəmadi görüşlər keçirilib və ötən bir ildə 1.400-ə yaxın könüllü ədliyyə orqanlarında, o cümlədən "ASAN School" proqramı çərçivəsində 45 nəfər müvafiq məhkəmələrdə könüllü fəaliyyətə cəlb olunub, onların bir qismi üçün Ədliyyə Akademiyasında xüsusi təlimlər təşkil edilib.

Bu gün 450-ə yaxın könüllü nazirliyin müxtəlif qurumlarında, o cümlədən aparatında fəaliyyət göstərirlər. Onlar həmçinin, müvafiq geyim formaları və metodiki vəsaitlərlə təmin edilirlər.

Könüllülərlə aparılan səmərəli işin nəticəsidir ki, Ədliyyə Nazirliyi ADA Universiteti tərəfindən tələbələrin istedadının gələcək inkişafına verdiyi dəyərli töhfəyə görə sertifikata layiq görülüb. Həmçinin, təkcə ötən il ərzində 90-dək gənc könüllü müxtəlif vəzifələrə işə götürülüb.



Görüşdə dövlət başçısının 2020-ci ilin "Könüllülər ili" elan olunması barədə Sərəncamı ilə verdiyi tapşırıqlara əsasən hazırlanmış müvafiq tədbirlər planına dair geniş təkliflərin aidiyyəti üzrə təqdim edildiyi diqqətə çatdırılıb, ədliyyə sahəsində könüllü fəaliyyətə cəlb olunmuş bir qrup gənclərin təşəbbüsü ilə təsis edilmiş "Ədliyyə Könüllüləri" İctimai Birliyin təqdimatı keçirilib. Nazir müavini tərəfindən qurumun dövlət qeydiyyatına alınmasına dair şəhadətnamə ictimai birliyin sədri, əvvəllər könüllü kimi fəaliyyət göstərmiş Ədliyyə Akademiyasının əməkdaşı Fatimə Zərbiyevaya təqdim edilib.



Təşkilatın sədri nazirliyin rəhbərliyi tərəfindən belə bir

addımın dəstəklənməsini məmnunluqla qeyd edib, qurumun məqsəd və vəzifələri barədə məlumat verib, birliyin öz sıralarında dövlətçiliyə sadiq, sağlam düşüncəli gəncləri birləşdirərək ədliyyə orqanlarının



dayanıqlı inkişafına dəyərli töhfələrini verəcəklərini vurğulayıb.

Tədbirdə çıxış edən gənclər





və idman nazirinin müavini Fərhad Hacıyev Azərbaycanda gənclər siyasətinin dövlətimizin əsas prioritetlərindən olduğunu, ölkədə geniş vüsət alan könüllülük hərəkatının əsas aparıcı və çevik qüvvəsinin məhz gənclər təşkil etdiyini bildirib. Qeyd edib ki, könüllü fəaliyyət gənclərin potensiallarının, dünyagörüşlərinin artırılmasında, məşğulluğunun təmin olunmasında, dövlətin müxtəlif sahələrində aktiv iştirakında mühüm əhəmiyyət kəsb edir.

BDU-nun Hüquq fakültəsinin dekanı Əmir Əliyev, ədliyyə naziri yanında İctimai Komitənin üzvü Sahib Məmmədov və "ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabarova ictimai-siyasi həyatın bütün sahələrində gənclərə əlverişli imkanların yaradıldığını, dövlət idarəçiliyinə yeni, savadlı, müasir dünyagörüşlü mütəxəssislərin irəli çəkildiyini, ölkə gənclərinin könüllülər hərəkatına fəal qoşulduğunu vurğulayıb, gənclərlə iş sahəsində Ədliyyə Nazirliyinin çoxşaxəli fəaliyyətini, o cümlədən qulluğa qəbul prosesində hər zaman şəffaflığa, ictimai iştirakçılığa böyük önəm verildiyini, gənclərə gələcək karyeralarını qurmalarına xüsusi qayğı ilə yanaşıldığını qeyd edib, könüllülərə tövsiyələrini veriblər.

Eyni zamanda, ədliyyə könüllülərinin fəaliyyət göstərdikləri sahələr üzrə təşəbbüsləri, innovativ ideyaları və təklifləri dinlənilib, gənclər dövlət başçısının rəhbərliyi ilə müstəqil Azərbaycanımızın hərtərəfli inkişafı naminə sədaqətlə və əzmkarlıqla çalışacaqlarını, görülən işlərdə fəal mövqe tutacaqlarını vurğulayıblar.

Görüşə yekun vuran nazir müavini T.Musayev gənclərə yüksək nəzəri biliyə və peşə hazırlığına malik olmaları, milli və vətənpərvərlik ruhunda tərbiyə almaları, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi, ədliyyə idarəçiliyində şəffaflığın və vətəndaş məmnunluğunun artırılmasında, ictimai nəzarətin həyata keçirilməsində yaxından iştirak etmələri barədə tövsiyələr verib, onları gənclər günü münasibətilə bir daha təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.



Həmçinin böyük potensiala malik olan könüllülüyün 2020-ci ildə ədliyyə və məhkəmə fəaliyyətinə daha geniş təşviq olunması və könüllülərin imkanlarından səmərəli istifadə olunması ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verilib.

Tədbir iştirakçılarına Azərbaycan gəncliyinin inkişafı ilə bağlı hazırlanmış əsas sənədlər toplusu və digər metodiki vəsaitlər təqdim olunub, xatirə şəkli çəkdirilib.

2 fevral - Gənclər Günü münasibətilə, həmçinin Ədliyyə tarixi muzeyində nazirlik tərəfindən dövlət gənclər siyasətinə uyğun həyata keçirilən tədbirləri əks etdirən yeni guşə yaradılıb, gənc könüllülərin muzeylə tanışlığı olub, kinozalda filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib.

# Ədliyyə orqanları tərəfindən 2019-cu ildə görülmüş işlər müzakirə olunub

## ◆ İcra və probasiya xidmətlərində





**Ədliyyə Nazirliyində yerli icra və probasiya qurumlarının rəhbərlərinin iştirakı ilə 2019-cu ildə icra və probasiya xidmətləri tərəfindən məhkəmə və digər orqanların qərarlarının icrası və probasiya nəzarəti sahəsində görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş müşavirə keçirilib.**

Tədbirdə giriş sözü ilə çıxış edən ədliyyə nazirinin müavini Vilayət Zahirov dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın 2019-cu ildə hərtərəfli tərəqqisinin təmin olunduğunu və yüksək nailiyyətlərin qazandığını vurğulayıb, ədliyyə və məhkəmə sahəsində islahatlardan bəhs edərək bu sahədə mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Prezident Fərmanının icrası üzrə görülən işlər barədə məlumat verib, qarşıya qoyulmuş vəzifələrin dəqiq və tam başa çatdırılmasını diqqətə çatdırıb.

Sonra İcra Baş İdarəsinin rəisi - Baş icra məmuru Nurəddin Mustafayev və Probasiya Xidmətinin rəisi - Baş probasiya məmuru Akşin Ziyadov hesabat məruzələri ilə çıxış ediblər.

Bildirilib ki, Ədliyyə Nazirliyinin vacib funksiyalarından olan məhkəmə qərarlarının icrası sahəsində ötən il ərzində də böyük iş həcmi olub. Belə ki, 2019-cu ildə icra qurumlarına daxil olan icra işlərinin sayı 861 mini ötüb, onlardan 485 mindən çoxunun icrası təmin edilib, fiziki və hüquqi şəxslərə əvvəlki illə müqayisədə 50 %-dən çox - 1.74 milyard manata yaxın vəsait ödətdirilib ki, bunun da 143 milyon manatdan çoxu aliment işləri üzrə ödəmələrdir. Qalan işlərin icrası üzrə tədbirlər davam etdirilir.

Qərarların icrasına maneçilik törədən, icra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 4.712 şəxs inzibati məsuliyyətə cəlb edilib, o cümlədən 2.808 nəfər inzibati qaydada həbs olunub, məhkəmə qərarlarının icrasından qərəzli yayınan 493 şəxs barəsində isə cinayət işi başlanılıb.

Həmçinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması təcrübəsi məhkəmə qərarlarının icrasının təmin olunmasına öz müsbət təsirini göstərmiş, 13 mindən çox borclu tərəfindən məhkəmə qərarları icra edildiyinə görə onların üzərindən məhdudiyyət götürülüb. Belə məhdudlaşdırmanın olub-olmamasını öyrənməklə bağlı nazirlik tərəfindən vətəndaşlara göstərilən elektron xidmətdən istifadənin sayı 2019-cu ildə artaraq 1.5 milyonu keçib.

Həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası sahəsində gö-

rülmüş işlər barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, ölkə Prezidentinin 2017-ci il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının icrası çərçivəsində görülən tədbirlər öz real bəhrəsini verir. Məhkəmələr tərəfindən azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinə daha çox üstünlük verilməsinin nəticəsidir ki, ötən il yerli probasiya qurumlarının qeydiyyatında olan məhkumların sayı əvvəlki illə müqayisədə 7,5 faiz artaraq 23 minə çatıb. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin sayı isə 2018-ci illə müqayisədə 4,4 dəfədən çox artıb.

Yerli probasiya qurumlarının qeydiyyatında olan 9.727 nəfər ötən il cəza müddətinin başa çatması, təyin olunmuş cəzanın tam icra olunması ilə əlaqədar və ya qanunla müəyyən edilmiş digər əsaslarla qeydiyyatdan çıxarılıb, cəzanın icrasından boyun qaçıran 728 məhkumun cəzası məhkəmələr tərəfindən digər cəza növü, o cümlədən 120 nəfərin cəzası azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib.

Eyni zamanda, azadlıqdan məhrumetməyə alternativ cəzaların, o cümlədən azadlığın məhdudlaşdırılması cəzasının icrasında elektron nəzarət vasitələrinin tətbiqi əhəmiyyətli dərəcədə genişlənərək 2019-cu ildə 2400-dən çox məhkuma elektron qolbaq tətbiq edilib.

2019-cu ildə məhkəmənin qərarlarına əsasən 1.502 şəxs ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrasına cəlb edilib, onlardan 886-ı ictimai işlərin müddətinin başa çatması ilə əlaqədar qeydiyyatdan çıxarılıb. İl ərzində bu növ cəzanın və inzibati tənbehin icrası ilə bağlı 183 min saatdan çox ictimai işlərin yerinə yetirilməsi təmin edilib. Cərimə və islah işlərinin icrası ilə bağlı dövlət büdcəsinə 2.5 milyon manata yaxın vəsaitin ödənilməsi təmin olunub.

İclasda görülən işlərlə yanaşı, yol verilmiş nöqsan və çatışmazlıqlar qeyd edilib, bununla bağlı nazirliyin məsul işçiləri, yerli icra və probasiya qurumlarının rəhbərləri dinlənilib, problemləri doğuran səbəblər təhlil olunmaqla onların aradan qaldırılması barədə konkret tələblər qoyulub.

Müşavirəyə yekun vuran nazir müavini diqqəti ölkəmizdə korrupsiya hüquqpozmalarına qarşı aparılan barışmaz mübarizəyə cəlb edib, bu cür əməllərin qəti və ciddi şəkildə cəzalandırıldığını, hesabat dövrü ərzində görülmüş intizam və digər hüquqi tədbirlərin bunun bariz nümunəsi olduğunu nəzərə çatdırıb. Bildirib ki, 31 nəfər yerli icra və probasiya qurumlarının əməkdaşları intizam məsuliyyətinə cəlb olunub, onlardan 5 nəfər ədliyyə orqanlarından xaric edilib, o cümlədən 2 nəfər barəsində toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilib.

Həmçinin, hər iki xidmətin fəaliyyət istiqamətləri üzrə qanunla müəyyən edilmiş vəzifələrin icrası, vətəndaşların və hüquqi şəxslərin müraciətlərinə məsuliyyətli və həssas yanaşılması, etik davranış qaydalarına dönmədən əməl olunması, ölkə başçısının müvafiq Sərəncamına əsasən "Könüllülər ili" elan edilmiş cari il ərzində gənc könüllülərin ədliyyə fəaliyyətinə geniş təşviq olunması ilə bağlı zəruri tapşırıqlar verilib.

## ◆ Penitensiar xidmətdə

**Yanvarın 17-də Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Baş idarəsində 2019-cu ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirədə Xidmətin Baş idarəsinin, eləcə də tabe qurumların rəhbər heyəti və Ədliyyə Nazirliyinin məsul əməkdaşları iştirak ediblər.

Ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənov müşavirəni açaraq ötən il Penitensiar sahədə əldə həyata keçirilən islahatlar və yeniliklər, qarşıda duran hədəflər barədə ətraflı məlumat verib.

Nazir müavini hesabat dövründə ölkə başçısının cəza-icra fəaliyyətini tənzimləyən müvafiq fərman və sərəncamlarının, qanunvericilik aktlarının, eləcə də Nazirliyin kollegiya qərarlarında öz əksini





tapmış tapşırıqların icrasının nəzarətdə saxlanıldığını, Baş idarənin, tabe qurumların maddi-texniki bazasının inkişafına, həbs edilmiş şəxslərin, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılmasına, fəaliyyətin səmərəliliyinin artırılmasına, nizam-intizamın möhkəmləndirilməsinə, nöqsanların aradan qaldırılmasına xüsusi diqqət yetirildiyini bildirib.

Vurğulanıb ki, məhkumların hüquq və mənafelərinin etibarlı qorunması təmin edilib, penitensiar müəssisələrə Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT, Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq qurumların, habelə qeyri-hökumət təşkilatlarının, İctimai Komitənin nümayəndələri, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və onun Milli Preventiv Qrupunun əməkdaşları tərəfindən başçəkmələr həyata keçirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamının və 18 dekabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası davam etdirilib, müvafiq tədbirlər görülüb.

Penitensiar xidmətin rəis müavini, ədliyyə general-mayoru Oqtay Məmmədov Xidmətin 2019-cu il ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi ilə çıxış edib.

Bildirilib ki, dövlət başçısının təşəbbüsü əsasında 20 oktyabr 2017-ci il tarixdə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı qəbul olunmuş Qanunun icrası davam etdirilərək, 658 məhkum cəza çəkməkdən azad olunub, 2591 məhkumun cəza müddəti azaldılıb, 452 məhkumun cəzaçəkmə rejimi dəyişdirilib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il 16 mart tarixli Əfv sərəncamı vaxtında və dürüst icra edilib, 399 məhkumun cəzasının qalan hissəsini çəkməkdən azad edilib, 3 məhkumun isə ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunub.

23 dekabr 2019-cu il tarixində bütün ölkədə olduğu kimi, Penitensiar xidmətin tabe qurumlarında da bələdiyyə seçkiləri uğurla keçirilib, cəza çəkənlər, habelə hərbi xidmət keçən əsgərlərə ərazi vahidində yerləşən seçki məntəqələrində səs vermələri üçün müvafiq şərait yaradılıb.

Diqqətə çatdırılıb ki, "Məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi institutunun tətbiqi ilə bağlı penitensiar müəssisələrin vəzifələrinin icrası üzrə müvəqqəti Qaydalar"ına uyğun yaradılmış Xüsusi Komissiyanın fəaliyyətində şəffaflığın artırılması, korrupsiya və digər neqativ hallarla mübarizənin gücləndirilməsi məqsədilə Komissiyanın iclaslarının virtual formada keçirilməsi üçün tədbirlər görülüb.

Xüsusi Komissiyaya ümumilikdə hesabat dövrü ərzində 3397 məhkumun ərizəsi təqdim edilib və müsbət rəylə məhkəmələrə təqdim olunmuş 2970 müraciətdən 2802-si, yəni 94,3%-i təmin olunub.

Hesabat dövründə eyni za-

manda penitensiar müəssisələrin əməliyyat aparatlarının məlumatları əsasında 622 cinayətin açılmasına köməklik göstərilib.

Penitensiar müəssisələrdə rejim-nəzarət funksiyasının gücləndirilməsi məqsədilə müvafiq tədbirlər görülüb, məhkumlar üzərində nəzarət gücləndirilib, görülmüş işlərin nəticəsi olaraq məhkum və həbs olunmuş şəxslər tərəfindən törədilmiş rejim pozuntularının sayı əhəmiyyətli dərəcədə azalıb.

Penitensiar müəssisələrə qadağan olunmuş əşyaların daxil olunmasının qarşısını almaq məqsədilə həyata keçirilən nəzarət gücləndirilib, nəticədə axtarış-baxış, habelə əməliyyat tədbirləri nəticəsində 88 fakt üzrə 125,7 qram narkotik və psixotrop maddə, 85 mobil telefon, habelə 68,5 litr spirtli içkinin penitensiar müəssisələrə keçirilməsinin qarşısı alınıb.

Hesabat dövründə eyni zamanda penitensiar müəssisələrin etibarlı müdafiəsi və mühafizəsi, o cümlədən məhkum və həbs edilmiş şəxslərin təhlükəsiz şəraitdə daşınması yüksək səviyyədə təmin olunub.

Cinayətkarlıqla mübarizə işində respublikanın hüquq-mühafizə orqanları birgə görülmüş əməliyyat tədbirləri nəticəsində həbs edilmiş şəxslər və məhkumlar tərəfindən könüllü olaraq təqdim olunmuş 6 ədəd tüfəng, 30 ədəd güllə və 1 ədəd soyuq silah (süngü-bıçaq) aşkar edilərək ərazi polis orqanlarına təhvil verilib.

Müşavirədə Penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

## Bələdiyyələrlə iş mərkəzində





**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzində bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım, inzibati nəzarət sahəsində 2019-cu il ərzində görülmüş işlərə və qarşıda duran vəzifələrə dair müşavirə keçirilib.**

Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Vilayət Zahirov dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli inkişafını, dövlət idarəçiliyinin bütün sahələrində olduğu kimi, ədliyyə sahəsində də həyata keçirilən islahatların önəmini vurğulayıb.

Sonra Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov Mərkəzin 2019-cu il ərzindəki fəaliyyəti barədə məruzə ilə çıxış edib.

Bildirilib ki, 2019-cu il yerli özünüidarəetmə orqanlarının formalaşmasının 20 illiyi, eləcə də bələdiyyə seçkilərinin uğurla keçirilməsi ilə yadda qalıb və hər iki hadisə ilə bağlı nazirlik tərəfindən geniş maarifləndirmə işi aparılıb.

Ötən il bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət sahəsində davamlı tədbirlər görülüb. Daxil olmuş bələdiyyə aktlarına inzibati nəzarət həyata keçirilərək qanunvericiliyin tələblərinə zidd olan aktların ləğv edilməsi və ya dəyişdirilməsi üçün bələdiyyələrə təkliflər, eləcə də bələdiyyələr tərəfindən təmin edilməyən təkliflərlə bağlı məhkəmələrə iddialar verilib. Həmçinin qanunsuz olaraq verilmiş torpaq sahələri bələdiyyə mülkiyyətinə və ya sahibliyinə geri qaytarılıb.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunmalı bələdiyyə aktlarının surətinin vaxtında təqdim edilməməsi və araşdırmaların aparılmasına maneçilik törədilməsinə görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsinə əsasən bir sıra bələdiyyələrin vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında protokollar tərtib edilərək məhkəmələrə göndərilib.

İnzibati nəzarət icraatı qaydasında aparılmış və cinayət əlamətləri aşkar edilən inzibati araşdırmalar üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına təqdim edilib.

Hesabat iclasında bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım sahəsində görülən işlər barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, maarifləndirmə tədbirlərinin həyata keçirilməsində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə səmərəli əməkdaşlıq edilib. Bələdiyyələrin istifadəsi üçün hazırlanan və GİZ-in maliyyə yardımı ilə "Bələdiyyələrdə arxiv işinin təşkilinə dair hüquqi aktlar toplusu" çap olunub.

Həmçinin, yerli özünüidarəetmə sahəsində bələdiyyələrin milli assosiasiyaları, vətəndaş cəmiyyəti institutları, Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlarla, eləcə də xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq davam etdirilib.

Tədbirdə görülmüş işlərlə yanaşı, yerli özünüidarəetmə sahəsində aktual məsələlər, habelə onları doğuran səbəblərə də toxunulub, bununla bağlı mərkəzin məsul işçiləri və əməkdaşları dinlənilib, mövcud problemlərin həlli istiqamətində bələdiyyələrə kömək edilməsi üçün qarşıda duran vəzifələr müəyyən edilib.

Müşavirəyə yekun vuran nazir müavini ölkə Prezidentinin rəhbərliyi ilə sosial-iqtisadi sahədə uğurla islahatların aparılması, sahibkarlığın, qeyri-neft sektorun, kənd təsərrüfatının inkişafı üzrə davamlı tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın dünyada ən islahatçı dövlətə çevrildiyini qeyd edib, bələdiyyələr tərəfindən də bu inkişafa töhfə verilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Bu istiqamətdə bələdiyyələrin maarifləndirilməsi, onların fəaliyyətinin təşkilinə kömək, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasının vacibliyi vurğulanıb.

Eyni zamanda müəyyən edilmiş vəzifələrin icrası, vətəndaşların müraciətlərinə xüsusi qayğı ilə yanaşılması, etik davranış qaydalarına dönmədən əməl edilməsi, korrupsiyanın yolverilməzliyi, vurğulanıb, 2020-ci il "Könüllülər ili" çərçivəsində gənc könüllülərin ədliyyə fəaliyyətinə daha geniş təşviq olunması ilə bağlı tapşırıqlar verilib.

## ◆ Ədliyyə Akademiyasında

**Ədliyyə Akademiyasının ali idarəetmə orqanı olan Elmi Şurasının geniş iclası keçirilib. İclasda akademiya tərəfindən 2019-cu ildə görülən işlər, qarşıda duran vəzifələr müzakirə edilib.**

Çıxış edən ədliyyə nazirinin müavini Azər Cəfərov ölkə Prezidenti cənab İlham Əliyevin ədliyyə və məhkəmə sisteminin inkişafı üçün mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində ötən dövrdə kompleks qanunvericilik, institusional və praktiki tədbirlərin həyata keçirildiyini, o cümlədən Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsinə dair təkliflər hazırlanaraq təqdim olunduğunu diqqətə çatdırıb. Geniş dinləyici auditoriyasına malik olan Akademiyanın müxtəlif kateqoriyadan olan hüquqşünas-dinləyicilərin hazırlanması və ixtisasının artırılmasında, o cümlədən ədliyyə işçiləri, vəkillər və hakimlərin davamlı tədrisində, bu orqanlarda çalışmaq istəyən, habelə prokurorluğa namizəd-





lərin icbari, hakimliyə namizədlərin uzunmüddətli təlimində əhəmiyyətini qeyd edib.

İclasda Akademiyanın prorektoru Elçin Xələfov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2019-cu ildə akademiyada 4.300-dək ədliyyə işçisi, vəkillər, hakimlər, prokurorlar və digər hüquqşünaslar, habelə bələdiyyə üzvü və qulluqçuları icbari təlim, ixtisasartırma və peşə hazırlığı kurslarına cəlb olunublar. Dövlət başçısının adıçəkilən Fərmanının tətbiqi ilə bağlı tədbirlər keçirilib, o cümlədən tədris proqramlarına aktual məsələlərə dair mövzular daxil edilib, mühazirələr oxunub.

Bununla yanaşı, akademiyada fəaliyyət göstərən Hüquq Klinikası tərəfindən 630-dək aztəminatlı şəxsə pulsuz hüquqi yardım göstərilib.

Ötən il həmçinin, Ədliyyə Akademiyasının digər xarici dövlətlərlə beynəlxalq əlaqələri genişlənərək, səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilib, Ukrayna və Moldovanın təhsil qurumları, habelə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə birgə video-konfrans vasitəsilə hakimlər üçün distant təlimlər təşkil olunub, həmçinin hüquqşünasların tədrisi sahəsində mühüm layihələr təşviq edilib.

Sonra Akademiyanın Tədris şöbəsinin ətraflı məruzəsi dinlənilib və müzakirələr aparılıb.

Müzakirələr zamanı nazir müavini görülən işlərlə yanaşı, fəaliyyətin səmərəliliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələrə toxunub. Diqqətə çatdırıb ki, Akademiyanın tədris prosesi ən müasir metodikalar və üsullar tətbiq olunmaqla təkmilləşdirilməli, proqramlara daha aktual və praktikadan, xüsusilə hakimlərin tədrisində məhkəmə təcrübəsindən irəli gələn mövzular daxil edilməlidir. Həmçinin, Ədliyyə Akademiyasında təlimçilər seçilərkən yüksək nəzəri biliyə və geniş təcrübəyə malik şəxslərin cəlb edilməsinin vacibliyi vurğulanıb, praktiki materiallar (ittiham aktı, hökm, qətnamə və s.) təhlil olunmaqla hüquqi yazı mədəniyyətinin formalaşdırılması ilə bağlı təlimlərin təşkil edilməsi, keçirilən tədris kurslarında qazanılan nəzəri biliklərin praktikada tətbiqi vəziyyətinin mütəmadi təhlil olunması, müasir İKT-lər tətbiq olunmaqla distant təhsil metodlarından, həmçinin tədris prosesinin elektronlaşdırılması və təlim materiallarının dinləyicilərə əlçatanlığının təmin edilməsi məqsədilə Akademiyanın Elektron Tədris Platformasının (Moodle Proqramı) imkanlarından daha geniş istifadə edilməsi ilə bağlı və digər konkret tapşırıqlar verilib.

İclasda həmçinin, Elmi Şuranın gündəliyinə daxil olan təşkilati, kadr və digər məsələlərə baxılıb.

## ◆ Qeydiyyat və notariat baş idarəsində

**Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində 2019-cu ildə görülmüş işlər və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**

Baş idarənin fəaliyyət istiqamətləri üzrə çıxış edən baş





idarə rəisi İlqar Məmmədov qeydiyyat əməliyyatları və notariat hərəkətləri üzrə artan statistik göstəriciləri səsləndirməklə bu sahədə tətbiq olunan yeniliklər, o cümlədən innovativ həllər barədə ətraflı məlumat vermişdir.

Bildirilib ki, hesabat dövründə qeyri-kommersiya qurumlarının qeydiyyatı 19,5%, uçota alınmış mətbu nəşrlərin sayı 17,9%, "Fərdi elektron pəncərə" elektron məlumat sisteminə yerləşdirilən məlumatların sayı 21,5% artmışdır.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi tədbirlər nəticəsində təmin olunan davamlı iqtisadi inkişafın təzahürü kimi mülki dövriyyənin artması əmlak hüquqlarının həyata keçirilməsində yardımçı olan notariat xidmətlərinin genişləndirilməsinə də təsir etmişdir. Belə ki, 2018-ci illə müqayisədə notariat hərəkətlərinin sayı 21,2% artmışdır.

Bununla yanaşı, iqtisadiyyatın kreditləşdirilməsində bankların rolunun artırılması üzrə ölkə başçısının 2019-cu ilin sentyabr ayında keçirdiyi iqtisadi müşavirədə verdiyi tapşırıqların icrası ilə bağlı Ədliyyə Nazirliyində görülmüş tədbirlər çərçivəsində 01.11.2019-cu il tarixində Azərbaycan Banklar Assosiasiyası və bank nümayəndələrinin iştirakı ilə baş idarədə keçirilmiş müşavirədə bankların səsləndirdiyi təkliflərin nəzərə alınması və həyata keçirilməsi üzrə görülmüş tədbirlər barədə məlumat verilmişdir.

Qeyd edilib ki, müqavilə üzrə bankların kreditor hüquqlarının daha rahat şəkildə məhkəmədən kənar qaydada həyata keçirilməsini mümkün etmiş notariusun icra qeydinin avtomatlaşdırılması nəticəsində 10 000-dən artıq müraciətin elektron qaydada icraya yönəldilməsi təmin olunub.

Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsünə əsasən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunun tələblərinə uyğun hesabat dövrü ərzində keçirilmiş yoxlamaların 14,2% azalmasının ölkəmizdə biznes və invesitisiya mühitinin davamlı yaxşılaşdırılmasında əhəmiyyəti xüsusi vurğulanıb.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Dünya Bankının hesabatında öz əskini tapan "əmlakın qeydiyyatı" indikatoru üzrə əmlak hüquqlarının qeydiyyatında operativliyin təmin edilməsinə xidmət edən bir sıra qanunverici və praktiki tədbirlər barədə də məlumat verilib.

Həmçinin bildirilib ki, daşınmaz əmlakın özgəninkiləşdirilməsi üzrə notariusun vergi agenti qismində tutduğu verginin məbləği 6,3% artaraq 53 milyon manat təşkil etmişdir.

"ASAN xidmət" mərkəzlərində göstərilən ədliyyə xidmətləri səsləndirilərək qeydiyyat əməliyyatlarının 15,9%, notariat əməliyyatlarının isə 32,3% artmaqla bu mərkəzlərdə verilmiş sənədlərin xeyli hissəsini təşkil etdiyi qeyd edilmişdir. Həmçinin 2019-cu ildə Şamaxı, Tovuz, Kürdəmir "ASAN xidmət" mərkəzlərində ədliyyə xidmətlərinin təşkili məqsədi ilə müvafiq kadrların seçilməsi və qurumların zəruri texniki kommunikasiya və informasiya resursları ilə təmin edilməsi barədə məlumat verilib.

Notariusların fəaliyyətinin daha səmərəli şəkildə təşkili üçün yeni imkanların yaradılması, əhalinin məsafədən xidmətlərə tələbatını nəzərə alan notariat prosedurlarının müəyyən edilməsi, rəqəmsallaşma dövründə elektron notariatın geniş tətbiqinin hüquqi əsaslarını müəyyən edən, ölkə başçısının təşəbbüsü ilə "Notariat haqqında" Qanuna edilmiş institusional dəyişikliklər Azərbaycan notariatının yeni inkişaf mərhələsi kimi qiymətləndirilib.

Məhz bu yeniliklərdən biri kimi notariusların peşə ixtisasının artırılması və notariat sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədini daşıyan Azərbaycan Notariat Palatasının

təsis edilməsi ilə bağlı Ədliyyə Nazirliyində Təşkilat Komitəsi formalaşdırılmış və 2019-cu ilin 8 iyul tarixidə ədliyyə nazirinin müavini cənab Toğrul Musayevin iştirakı ilə Palatanın təsis yığıncağı keçirilmişdir.

Baş idarənin sosial sahədə də həyata keçirdiyi tədbirlər barədə məlumat verilərək qeyd olunub ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailə üzvlərində birdəfəlik ödəmələrin verilməsi, habelə aztəminatlı ailələrin müavinətlərlə operativ təmin edilməsi üzrə verilmiş vərəsəlik şəhadətnamələrinin və rəsmiləşdirilməklə aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmiş müraciətlərin sayı ümumilikdə 141 613 olmuşdur.

Sosial yönümlü tədbirlər sırasında həmçinin ailə institutunun qorunub saxlanılması və nikah pozulmalarına qarşı qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində qeydiyyat şöbərində təşkil edilmiş psixoloq xidmətlərinin əhəmiyyəti də səsləndirilmişdir. Belə ki, bu xidmətdən yararlanan şəxslərin 36%-i nikahın pozulması fikrindən daşınmışdır.

Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, habelə yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsi ilə bağlı şəxslərin FİN-lə təmin edilməsi üzrə aparılan əməliyyatların və verilən sənədlərin sayı təxminən yarım milyona yaxın olmuşdur.

Bununla yanaşı, nazirliyin rəhbərliyinin tapşırığına uyğun olaraq "Dayanıqlı İnkişaf Məqsədləri"ndə öz əksini tapmış doğumun qeydiyyatının tam təmin edilməsi hədəfinə nail olunması üçün 3 min yarıma qədər doğum səyyar qaydada bilavasitə doğum evlərində aparılmış, habelə uzaq bölgələrdə yaşayan uşaqların doğumunun qeydiyyatına köməklik göstərilmişdir.

Ədliyyə xidmətlərinə əlçatanlığın təmin edilməsi məqsədini daşıyan Heydər Əliyev adına hava limanında quraşdırılmış və məsafədən fasiləsiz xidmət göstərən elektron ədliyyə köşkünün, mobil cihazlar üçün yaradılmış "Mobil notariat" proqramı, bu proqram çərçivəsində tətbiq olunan mobil notariat qovluğu və ədliyyə işçilərinin peşə bayramı günündə əhalinin istifadəsinə verilmiş mobil etibarnamə xidmətlərinin vətəndaş məmnunluğunun təmin edilməsində əhəmiyyəti vurğulanıb. Həmçinin notariat ofislərinə gələ bilməyən şəxslərə iş və ya yaşayış yerini tərk etmədən notariat xidmətlərindən yararlanması məqsədilə müasir avadanlıqla təchiz olunmuş və "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan xüsusi səyyar çantaların notariusların istifadəsinə verilməsi barədə də məlumat verilib.

Bildirilib ki, baş idarənin təşkil etdiyi elektron xidmətlərdən istifadə edənlərin sayı 1,5 milyonu, mobil tətbiqi telefonlarına yükləmiş istifadəçilərin sayı isə 30.000-i ötmüşdür.

Təsadüfi deyil ki, xidmət sahəsində tətbiq olunan innovativ həllərin öyrənilməsi məqsədi ilə Bakıda keçirilən beynəlxalq seminarlar artıq bir ənənəyə çevrilmişdir.

Əhalinin hüquqi maarifləndirilməsi fəaliyyəti baş idarənin işində mühüm əhəmiyyət kəsb etmişdir. Bu sahədə baş idarənin və yerli qurumların əməkdaşları tərəfindən müxtəlif istiqamətləri əhatə edən ümumilikdə 1200-ə yaxın təbliğat və maarifləndirmə tədbirləri görülmüşdür.

Bununla yanaşı, 2019-cu ildə qanunvericiliyin təkmilləşdirilməsinə yönəldilmiş müəyyən tədbirlər də qeyd edilmişdir. Belə ki, "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın, Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının və Ədliyyə Nazirliyinin İş Planının icrası məqsədi ilə baş idarə tərəfindən hazırlanmış layihələr əsasında 9 normativ hüquqi aktda dəyişikliklər edilmiş, 2 normativ hüquqi akt Ədliyyə Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq edilmiş, daha 18 normativ hüquqi akta dəyişikliklərə dair təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Eyni zamanda, yerli qeydiyyat və notariat orqanları işçilərinin peşə ixtisasının artırılması məqsədi ilə il ərzində müxtəlif mövzularda təlimlər keçirilmiş, yardımçı vəzifələrdə çalışan əməkdaşların təlim üzrə qiymətləndirilməsi aparılmışdır. Bu tədbirin cari ildə də davam etdirilməsi nəzərdə tutulur.

Tədbirin sonunda qarşıda duran vəzifələrin icrasına daha məsuliyyətlə yanaşılması, icra intizamına dönmədən əməl edilməsi, habelə işin daha səmərəli təşkili üçün təşəbbüs səylərinin artırılmasına dair tapşırıqlar verilib.

***Avropa Ümumi Hüquq Təşkilatı (EPLO) tərəfindən nəşr olunan "Mərkəzi və Şərqi Avropa Hüquq Araşdırmaları" jurnalında Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, EPLO-nun Direktorlar Şurasının üzvü Toğrul Musayevin BMT-nin Dayanıqlı İnkişaf üzrə 2030-cu ilədək Gündəliyinin ədalətli məhkəməyə çıxış imkanın yaradılması ilə bağlı 16-cı Məqsədinə uyğun olaraq ölkəmizdə həyata keçirilən tədbirlərdən bəhs edən ingilis dilində məqaləsi dərc edilmişdir.***

***Həmin məqalənin Azərbaycan dilinə tərcümə olunmuş mətni oxucularımıza təqdim olunur.***

# Ədalət mühakiməsinə əlçatanlığın təmin olunması dayanıqlı inkişafa xidmət edir






SUMMARY

T. MUSAYEV, Ensuring Access to Justice Serves Sustainable Development ........ 7

EMM. ΕΛΕΥΘΕΡΟΓΛΟΥ, Η Θεωρητική Βάση της Διακρατικής Διοικητικής Πράξης εντός του πλαισίου της Ευρωπαϊκής Ένωσης [The Theoretical Basis of the Transnational Administrative Act within the Framework of the European Union] ........ 17

B. CEPEK, Procedurálne princípy podľa rezolúcie Výboru ministrov [Procedural Principles pursuant to the Resolution of the Ministers' Committee] ........ 69

T. YILDIRIM MAT / İ. ERMAĞAN, Impact of Turkey's Membership Process to the European Union on the Legal System ........ 95

AIK.-ATH. PIPERIGOS TZANIS, Communications stratégiques et la riposte européenne à ses défis et concurrents dans les Balkans occidentaux -
*La stratcom de l'UE est-elle réellement stratégique?* ........ 109

R. SZCZEPANIAK / M. KRZYMUSKI, The Freedom of Contract in the Public Sector, with Particular Emphasis on the Polish and German Experience ........ 181

B. SUDAVIČIUS, Skolinimasis valstybės vardu Lietuvos Respublikoje [Borrowing on Behalf of the State in the Republic of Lithuania] ........ 259

ENSURING ACCESS TO JUSTICE
SERVES SUSTAINABLE DEVELOPMENT

TOGHRUL MUSAYEV*

AT the 2015 Summit of the UN Member States, Azerbaijan joined the new initiative of this authoritative organization - Sustainable Development Goals, which encompasses 17 goals and 169 targets for the period until 2030. Against these new Goals, which came into force on 1 January 2016, the countries are making every effort to achieve targets on 304 indicators, guided by the principle "Leaving no one behind".

The purpose of the balanced development of all spheres of social and political life is to ensure the progress of a sustainable, comprehensive and diversified economy, the wide application of modern approaches and innovations, and above all, the improvement of living standards of and provision of more flexible and transparent services to people. The National Coordination Council has been established in Azerbaijan to be headed by the Deputy Prime Minister to ensure that more efficient and coherent work is carried out in this area.

Each of the goals and targets for sustainable development, including the promotion of peaceful and inclusive societies, the promotion of the rule of law at the domestic and international levels, the facilitation of access to justice for all, serves the reliable ensuring of human rights.

Azerbaijan presented the Second National Volunteers Report on Sustainable Development at the High Level Political Forum held in July 2019 at the UN Headquarters. Addressing the Forum, the UN

* Deputy Minister of Justice of the Republic of Azerbaijan, Member of the EPLO Board of Directors

Central and Eastern European Legal Studies, 1/2019

15

... parency and prompt administration. In addition, the article discusses anti-corruption actions taken in the country, including those in the judiciary and justice system. It specifically describes the brand of Azerbaijan - the ASAN service. In conclusion, it speaks of the high international assessment of the judicial reforms in the country.

**Azərbaycan BMT-nin üzvü olan dövlətlərin 2015-ci ildə keçirilən Sammitində bu mötəbər təşkilatın yeni təşəbbüsünə - 2030-cu ilə qədər olan dövr üçün 17 məqsədin, 169 hədəfin icrasını nəzərdə tutan Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. 2016-cı ilin 1 yanvar tarixindən qüvvəyə minən və universal xarakter daşıyan bu yeni Məqsədlər fonunda ölkələr "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq, qarşıya qoyulan hədəflərə çatmaq istiqamətində 304 göstərici üzrə bütün səylərini səfərbər edirlər.**

Ölkə həyatının bütün sahələrinin tarazlı inkişafı, dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın tərəqqisi, müasir yanaşmaların, innovasiyaların geniş tətbiqi, ədalət mühakiməsinin təkmilləşdirilməsi sahəsində islahatların aparılması ilk növbədə, insanların həyat səviyyəsinin yaxşılaşması, onlara daha çevik və şəffaf xidmətlərin göstərilməsi məqsədi daşıyır. Bu sahədə işin daha səmərəli və əlaqəli şəkildə qurulması üçün Azərbaycan Respublikası Baş Nazirinin müavininin rəhbərliyi ilə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Dayanıqlı inkişaf üçün məqsəd və hədəflərin hər biri, o cümlədən sülhsevər və inklüziv cəmiyyətlərin, milli və beynəlxalq səviyyələrdə qanunun aliliyinin təşviqi, hamı üçün ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması məhz insan hüquqlarının etibarlı təminatına xidmət edir.

Bu ilin iyul ayında BMT-nin Baş Qərargahında keçirilən Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan özünün İkinci Könüllü Milli Hesabatını təqdim etmişdir. Forumda BMT-nin Baş Katibi cənab Antonia Qutyeriş ədalət mühakiməsinə əlçatanlığın əhəmiyyətdən bəhs edərkən, inklüziv inkişaf üçün çox vacib olan səmərəli məhkəmə sistemlərinin əksər insanlar üçün əlçatmaz olduğunu qeyd etmişdir. Bu baxımdan ədalət mühakiməsinə əlçatanlığın artırılması istiqamətində aparılan islahatlar barədə hesabatda verilmiş məlumatlar və "Azərbaycanda məhkəmə-hüquq islahatları: innovativ təcrübələr"

adlı broşur Forum iştirakçıları arasında xüsusi maraqla qarşılanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri kimi işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxılması, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi isə Konstitusiyanın 127-ci maddəsində təsbit olunmuşdur.

Ədalət mühakiməsinə əlçatanlıq anlayışı dünya məkanında bir neçə istiqamətə bölünür:

- birinci və ikinci instansiya məhkəmələrinin müvafiq sayda yaradılması;
- məhkəmə binalarının tikintisi zamanı ədalət mühakiməsi xüsusiyyətlərinin və əlçatanlığın nəzərə alınması;
- hüquqi və fiziki şəxslərin maarifləndirilməsi üçün müxtəlif informasiya mənbələrinin yaradılması;
- müasir dövrün tələblərinə əsasən ədalət mühakiməsinə çıxış təmin edilərkən İKT-dən istifadəyə üstünlük verilməsi.

Həmçinin ölkələr ədalət mühakiməsinə əlçatanlığı təmin edərkən aşağıdakı faktorları mütləq nəzərdən keçirməlidirlər:

- yaradılan müəssisənin coğrafi yerləşməsi və onun ölçüləri;
- tələb olunan xərclərin azaldılması;
- göstərilən xidmətlərin keyfiyyəti.

Bu sahədə davam edən islahatlar Azərbaycanın dövlət siyasətinin prioritetlərindəndir. İslahatın əsas məqsədi müasir dövrün tələblərinə cavab verən, "əhali üçün əlverişli" məhkəmə sisteminin yaradılması, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması, məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsidir.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafında yeni mərhələ olmaqla islahatların müasir çağırışlara uyğun davam etdirilməsini, ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına yönələn mühüm qanunvericilik, institusional və praktiki tədbirlərin görülməsini şərtləndirmişdir.

Fərmandan irəli gələn məsələlər həm də Dayanıqlı İnkişaf Məqsədlərinin hədəflərinə uyğun olaraq ədalət mühakiməsi sisteminin hamı üçün daha əlçatan, şəffaf, sürətli və müstəqil formalaşdırılmasına yönəlmişdir.

Məhkəməyə əlçatanlığın təmin olunmasının vacibliyi Avropa Şurası Nazirlər Komitəsinin "Ədalət mühakiməsinə müraciət imkanlarının asanlaşdırılması yolları haqqında", "Əhalinin aztəminatlı təbəqəsinin qanuna və ədalət mühakiməsinə əlçatanlığının səmərəliliyi barədə" adlı tövsiyələrində, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir sıra qərarlarında da təsbit olunmuşdur.

BMT-nin İnsan Hüquqları üzrə keçmiş Ali Komissarı Meri Robinson ədalət mühakiməsini Dayanıqlı İnkişafın 17 Məqsədinin hər birini birləşdirən element kimi səciyyələndirərək, bütün insanların, cəmiyyətin hər bir təbəqəsinin ədalət mühakiməsinə bərabər çıxış imkanlarının olmamasını daha geniş məqsədlərə nail olmaq şanslarını xeyli azaltdığını bildirmişdir.

Ötən dövrdə Azərbaycan Respublikasının məhkəmə sisteminin quruluşunda mühüm dəyişikliklər edilmiş, yeni regional məhkəmələr yaradılmışdır.

Belə ki, bölgələrdə yaşayan insanların apellyasiya şikayətləri ilə bağlı Bakı şəhərində yerləşən və yurisdiksiyası bütün ölkəyə şamil olunan apellyasiya məhkəməsinə müraciət etmələrində çətinliklər yarandığını nəzərə alaraq, regionlarda əlavə 5 apellyasiya məhkəməsi, habelə 3 yeni yerli iqtisad məhkəməsi təşkil edilmiş, 2010-cu ildə isə ölkə üzrə vahid olan və paytaxtda fəaliyyət göstərən ağır cinayətlər məhkəməsinin əvəzinə 5 yeni regional ağır cinayət məhkəmələri yaradılmışdır.

Məhkəmə-hüquq sistemimizin inkişafında ən mühüm hadisələrdən biri ilk dəfə olaraq inzibati ədliyyə institutunun təsis edilməsi olmuşdur və 2011-ci ildən ölkənin 7 bölgəsində yeni inzibati məhkəmə fəaliyyətə başlamışdır. Vətəndaşların inzibati mübahisələr üzrə qaldırdıqları iddiaların təmin olunmasında inzibati ədliyyə institutunun yaradılması mühüm əhəmiyyətə malikdir.

Nəzərə alınmalıdır ki, məhkəmələrdə ixtisaslaşmanın aparılması bu gün bütün dünyada ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ən faydalı üsullardan biri hesab olunur. İslahatlar bu sahədə də

davam etdirilərək, müvafiq qanunvericilik aktları qəbul edilmişdir. Yeni qanunvericiliyə uyğun olaraq sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və bu sahədə işlərə daha çevik baxılmasının təmin edilməsi məqsədilə yeni ixtisaslaşmış məhkəmələr - kommersiya və ayrıca inzibati məhkəmələr təsbit olunub, mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə paytaxtda və regionlarda ayrıca İnzibati məhkəmələr yaradılıb. Yeni məhkəmələrdə konkret sahədə dərin hüquqi bilik və təcrübəsi olan hakimlərin fəaliyyət göstərməsi nəzərdə tutulur. Qarşıya qoyulan məqsədlərə nail olmaq istiqamətində hakim ştatlarının daha 200 vahid artırılması xüsusi önəm daşıyır. Proqnozlaşdırılır ki, bütün qeyd olunanlar işlərə daha ixtisaslı, çevik və peşəkar baxılmasına, onların daha dolğun, hərtərəfli araşdırılmasına şərait yaradaraq, ədalət mühakiməsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına səbəb olacaqdır.

Bütövlükdə həyata keçirilən tədbirlər özəl sektorun məhkəmələrə müraciət imkanlarının genişlənməsinə, hakimlərin iş yükünün, süründürməçilik və digər pozuntuların azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına, habelə bölgələrdə digər hüquq institutlarının inkişafına xidmət etdiyindən, Azərbaycan məhkəmə-hüquq sistemində yeni mərhələnin başlanğıcı kimi qəbul edilməlidir.

Ədalət mühakiməsinə əlçatanlığı asanlaşdıran digər əhəmiyyətli faktor məhkəmə infrastrukturudur. Son illər dövlət büdcəsi hesabına və beynəlxalq maliyyə qurumu olan Dünya Bankı ilə əməkdaşlıqda birgə həyata keçirilən layihələr çərçivəsində paytaxtda və bölgələrdə yeni məhkəmə binaları, konseptual baxımdan yeni olan və öz funksionallığı ilə fərqlənən məhkəmə kompleksləri tikilərək istifadəyə verilmişdir.

Sözsüz ki, ədalət mühakiməsinə əlçatanlığın təmin edilməsi bu təsisatın şəffaf olması ilə şərtləndirilir. Həm əlçatanlığa, həm də şəffaflığa nail olmaq istiqamətində əsas vasitələrdən biri də, məhkəməyə müraciət imkanlarını xeyli asanlaşdıran informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsidir. 2014-cü ildə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması bu sahədə həyata keçirilən tədbirlərin yeni mərhələdə davamına rəvac vermiş, məhkəmə fəaliyyətinin elektronlaşdırılması vətəndaşların ədalət mühakiməsinə elektron qaydada çıxışını təmin etmişdir.

Vətəndaşın məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi:

- məhkəmədə icraatın elektron qaydada aparılmasını və sənədlərin elektron dövriyyəsini;
- işlərin hakimlər arasında avtomatlaşdırılmış qaydada bölgüsünün aparılmasını və onlara baxılması vaxtlarına dair elektron cədvəlin tərtib edilməsini;
- məhkəmə proseslərinin audio, video yazısının aparılmasını və onları onlayn rejimdə müşahidə etmək imkanının yaradılmasını;
- işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsini və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyalara malik olmasını və s. komponentləri özündə ehtiva edir.

Proses iştirakçıları bu sistemdə "Şəxsi kabinet"ə sahib olmaqla məhkəməyə gəlmədən, elektron imzadan istifadə edərək:

- elektron müraciət və şikayətlər vermək;
- dövlət rüsumunu elektron qaydada ödəmək;
- iştirakçısı olduğu prosesin vaxtı və nəticəsi barədə məlumat əldə etmək;
- iddia ərizələrini və digər sənədləri (bildirişlər, məhkəmə aktları və s.) elektron qaydada təqdim etmək və almaq və s. imkanına malikdirlər.

Həmçinin, əhaliyə hüquqi xidmətlərin yaxşılaşdırılması məqsədilə məhkəmə sisteminin vahid internet portalı (www.courts.gov.az) yaradılmışdır ki, bu portal bütün məhkəmələr və onların yurisdiksiyası, hakimlər, əlaqə vasitələri, iddia ərizələrinin və digər məhkəmə sənədlərinin nümunələrini və s. təqdim edir.

2018-ci ilin dekabrında qanunvericiliyə edilmiş əsaslı dəyişikliklərə əsasən mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması, bu zaman proses iştirakçılarına məhkəmə sənədlərinin elektron versiyada dərhal çatdırılması, bəzi kateqoriya işlər üzrə sadələşdirilmiş prosedurlarla, o cümlədən qısaldılmış müddətlərdə baxılması təsbit olunmuşdur. 2019-cu ilin əvvəlindən iqtisadi mübahisələr üzrə icraat yalnız "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə, mülki işlər üzrə isə ənənəvi yolla yanaşı, həm də bu sistem vasitəsi ilə həyata keçirilir.

Mürəkkəb mexanizmləri və

çoxsaylı komponentləri özündə ehtiva edən və uzun sürən proses olan e-məhkəmənin yaradılması ilə bağlı ötən dövrdə görülmüş əməli tədbirlər nəticəsində məhkəmələrin 60 faizdən çoxunda bu sistemin tətbiqinə nail olunmuşdur.

Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Fərman bu sahədə işlərin sürətləndirilməsinə, sistemlə bağlı təşkilati işlərin yekunlaşdırılmasına və onun funksionallığının artırılmasına, başqa sözlə, ölkənin bütün ərazisinin, yəni qalan məhkəmə və icra qurumlarının, hətta penitensiar müəssisələrin elektron məhkəmə ilə əhatə olunmasına yönəlmişdir.

İnsan haqlarının etibarlı təminatına yönələn məhkəmə islahatları beynəlxalq qurumlar tərəfindən də böyük maraqla qarşılanır və əldə olunan nəticələr müsbət dəyərləndirilərək digər dövlətlərə örnək kimi tövsiyə edilir. 2017-ci ildə bu sahədə nailiyyətlərə görə Azərbaycan Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olmuşdur. Bununla yanaşı, 50-dən çox dövlətin məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə köməklik edən və ədliyyə fəaliyyətinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfələr verən nüfuzlu Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) plenar iclası 2014-cü ildə ilk dəfə olaraq Strasburqdan kənarda, Bakıda təşkil olunmuş, 2018-ci ildə isə qurumun prezidenti vəzifəsinə Azərbaycanın nümayəndəsi seçilmişdir.

Fərmanla həmçinin, hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə Məhkəmə-Hüquq Şurasında "Qaynar xətt" yaradılmış, hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi işinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlığın və qərəzsizliyin, habelə qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin olunması, bu məqsədlə mütəmadi monitorinqlərin keçirilməsi ilə bağlı əlavə tədbirlər müəyyən edilmişdir.

Şübhəsiz ki, məhkəmə sisteminin daha səmərəli fəaliyyət göstərməsi, hakimlərin obyektivliyinin, qərəzsizliyinin, müstəqilliyinin təmin olunması üçün onların maddi təminatı da mühüm əhəmiyyət kəsb edir. Məhz ona görə adıçəkilən Fərmana uyğun olaraq bu ərəfədə qanunvericiliyə dəyişikliklər edilərək hakimlərin maddi təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb, o cümlədən bütün hakimlərin aylıq vəzifə maaşları həcmində əmək haqlarına əlavə ödənilməsi müəyyən edilib, digər təminatlar nəzərdə tutulub. Eyni zamanda, məhkəmələrdə baxılan işlər üzrə dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə uyğun differensiasiyası və həmin rüsumların müəyyən hissəsinin məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsi üzrə müvafiq layihələr hazırlanıb.

Ədliyyə təsisatlarına əlçatanlığın əsas təminatlarından biri də əhalinin maarifləndirilməsi və onlara göstərilən hüquqi yardımdır. Bu sahədə Ədliyyə Nazirliyində İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin, həmçinin regional ədliyyə idarələrinin yaradılması hüquqi maarifləndirmə və informasiya təminatı işinin yaxşılaşdırılmasına, əhalinin müraciət imkanlarının asanlaşdırılmasına və keyfiyyətli hüquqi yardımın göstərilməsinə xidmət etmişdir. Ötən dövrdə həmin qurumlar tərəfindən bölgələrdə yaşayan əhalinin hüquqi biliklərinin artırılması məqsədilə mütəmadi tədbirlər həyata keçirilmişdir.

Eyni zamanda, açıq hökumətin prinsiplərinə uyğun olaraq dövlət orqanlarının fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşlara elektron xidmətlərin göstərilməsi, ictimai iştirakçılığın geniş formalarından istifadə olunması, könüllülük institutunun geniş təşviqi əhalinin və onun müxtəlif təbəqələrinin müraciət imkanlarının asanlaşdırılmasında, onlara asan, rahat və çevik xidmətlərin göstərilməsində və vətəndaş məmnunluğunun yüksəldilməsində mühüm rol oynayır.

Bu gün ədliyyə orqanlarının fəaliyyət istiqamətləri üzrə əhaliyə 31 elektron xidmət göstərilir, elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı yeni e-xidmətlərin yaradılması ilə bağlı tədbirlər görülür.

Xüsusilə qeyd olunmalıdır ki, göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına Azərbaycanın brendinə çevrilmiş ictimai xidmətlərin müasir modeli olan "ASAN xidmət" mərkəzləri böyük təkan vermişdir. Ölkədə hazırda 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir ki, onlardan 5-i paytaxtda, digər 10-u isə regionlarda yerləşir. Bu mərkəzlərdə 10 dövlət orqanı tərəfindən qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının qorunması, şəf-

faflıq, peşəkarlıq və xidmətdə nizam-intizam prinsipləri əsasında 32 növ xidmət göstərilir. Hazırda 7 yeni "ASAN xidmət" Mərkəzinin yaradılması üzərində iş aparılır. Onlardan 2-nin paytaxtda, 5-nin isə regionlarda yaradılması nəzərdə tutulur.

Vətəndaşlar üçün notariat xidmətlərinin daha əlçatan olması üçün bu sahədə innovasiyaların tətbiqi də mühüm əhəmiyyət kəsb edir. Belə ki, təxirə salınmadan ədliyyə xidmətlərinə ehtiyac yarandığı yerlərdə, o cümlədən sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında elektron ədliyyə köşklərinin quraşdırılması nəzərdə tutulur ki, bu da notariuslarla videoəlaqə vasitəsi ilə notariat hərəkətlərinin rəsmiləşdirilməsinə və sənədlərin bilavasitə yerində əldə edilməsinə şərait yaradır.

Eyni zamanda, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün notariat fəaliyyətinə dair mobil telefona yüklənən proqram təminatı və müasir avadanlıqla təchiz olunan "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan xüsusi çanta ədliyyə sahəsində tətbiq olunan innovasiyalardandır. Elektron notariat informasiya sisteminə və aidiyyəti məlumat banklarına birbaşa çıxışı olan bu "çanta" vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür.

2019-cu ilin iyununda 190-dan çox ölkədən 800-dən artıq nümayəndənin iştirakı ilə BMT-nin Dövlət Xidmətləri Forumun Bakı şəhərində keçirilməsi və Azərbaycanın rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafata layiq görülməsi bu sahədə aparılan islahatlara verilən yüksək qiymət kimi qəbul edilməlidir.

Bütün qeyd edilənlər ədliyyə və məhkəmə sisteminin müasir tələblərə uyğun təşkilinə, innovativ texnologiyaların geniş tətbiqinə, elektron ədliyyənin inkişafına və digər mühüm hədəflərə yönəlməklə, bütövlükdə Dayanıqlı İnkişaf Məqsədlərinə xidmət edir.

# Hakimlərin Seçki Komitəsinin məlumatı

**Ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tövsiyə və tapşırıqları üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin tam şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi davam edir.**



Test üsulu ilə və yazılı imtahanlarda müvəffəqiyyət qazanmış 81 nəfər namizədlə Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi imtahanlar keçirilib. İmtahanlar zamanı namizədlərə hüququn müxtəlif sahələrinə dair 5 sual verilib və onların hər biri yarım saat ərzində bu sualları cavablandırıb. Namizədlərə bərabər şərait yaradılması və obyektivliyin təmin edilməsi məqsədilə imtahan sualları hər gün bilavasitə imtahandan əvvəl, imtahan keçirilən auditoriyada hazırlanıb və onlar tərəfindən sərbəst cavablandırılıb.

Suallar namizədlərin bilik səviyyəsinin, fikirlərini səlist ifadə etmək bacarığının, məntiqi nəticələr çıxarmaq qabiliyyətinin, ümumi dünya görüşünün müəyyən olunmasına imkan verib.

İmtahanın nəticəsinə görə 60 və daha çox bal toplamış 44 nəfər tədris kurslarına buraxılıb.

Həmin kurslarda namizədlərin hakimlik fəaliyyətinə hazırlanmaları təmin ediləcək, hakimin etik davranışı, korrupsiya ilə mübarizə, insan haqları, beynəlxalq normalar və digər aktual məsələlərə dair mövzular nüfuzlu yerli və beynəlxalq ekspertlərin iştirakı ilə tədris olunacaq, onlar məhkəmələrdə staj keçəcəklər. Həmçinin namizədlərin xarici dövlətlərdə qabaqcıl təcrübəni öyrənmələri nəzərdə tutulur.

# Ədliyyə Akademiyasında spiker hakimlər üçün təlim keçirilib





**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanına uyğun olaraq, məhkəmə hakimiyyətinə ictimai etimadın gücləndirilməsi, məhkəmə fəaliyyətində şəffaflığın artırılması, geniş ictimaiyyətin məlumatlandırılması üzrə işlər davam etdirilir.**

Bu müstəvidə kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqələr genişləndirilib, Məhkəmə-Hüquq Şurasının qərarı ilə məhkəmələrdə media ilə işləyəcək spiker-hakimlər ayrılıb, eləcə də, Şuranın özündə məsul şəxs müəyyən edilib, onların siyahısı Şuranın saytında yerləşdirilib. Çoxsaylı KİV rəhbərlərinin və jurnalistlərin iştirakı ilə görüş təşkil olunaraq spiker-hakimlər KİV təmsilçilərinə təqdim olunub, habelə hakimlər və jurnalistlər üçün təlim və seminarlar təşkil edilib.

Davam edən tədbirlər çərçivəsində Ədliyyə Akademiyasında spiker-hakimlər üçün "Məhkəmə fəaliyyətində aşkarlıq" mövzusunda təlim keçirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektor vəzifəsini icra edən Elçin Xələfov açılış nitqi edib. Nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova və Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli mövzu üzrə mühazirələrlə çıxışlar edərək, spiker-hakim institutunun yaradılmasının məhkəmə sistemində şəffaflığın və aşkarlığın artırılmasına, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə, əhalinin məhkəmə fəaliyyəti ilə bağlı obyektiv və qərəzsiz işıqlandırılmasına xidmət etdiyini vurğulayıblar.

Həmçinin spiker-hakimlərin qarşısında duran vəzifələrdən danışılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

Təlimə dəvət olunmuş beynəlxalq media eksperti, professor Juan (Joan) Barata Mirin "Hakimlərin kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqəsi" mövzusunda məruzəsi dinlənilib.

# Ədliyyə Nazirliyi ilə Azərbaycan Banklar Assosiasiyası arasında görüş keçirilib

**Yanvarın 31-də Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin və Azərbaycan Banklar Assosiasiyasına (ABA) üzv bankların nümayəndələri arasında görüş keçirilib.**

Məqsəd məhkəmə ekspertizaları zamanı tərəflərin təqdim etməli olduğu sənədlər haqqında praktiki müzakirələr aparmaq, ekspertiza üçün zəruri olan sənədlərin daha müasir standartlara uyğunluğunu müəyyən etmək, bankların bu sahədə üzləşdikləri çətinliklərin operativ qaydada həllinə nail olmaq üçün fikir mübadi-





ləsi aparmaqdan ibarətdir.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova çıxış edərək son dövrlər Ədliyyə Nazirliyi ilə ABA arasında əməkdaşlığın, konstruktiv dialoqun yüksək səviyyədə aparıldığını, hər iki qurum arasında yaradılmış üç işçi qrupunun (Məhkəmə, İcra və Məhkəmə ekspertizası) fəaliyyətini yüksək qiymətləndirərək, bu sahələrdə fəaliyyətin daim nazir Fikrət Məmmədovun diqqət mərkəzində olduğunu vurğulayıb. O, gələcəkdə də bu tipli görüşlərin keçirilməsinin məqsədəmüvafiq olduğunu bildirib.

Məhkəmə Ekspertiza Mərkəzinin direktoru Fuad Cavadov bu sahədəki fəaliyyətdən, yeniliklərdən danışaraq, gələcəkdə özəl ekspertizaların fəaliyyətə başlamasının mühüm amil olduğunu qeyd edib. O, yaradılmış Məhkəmə Ekspertiza İşçi Qrupunun fəaliyyətini yüksək qiymətləndirib və işçi qrupa fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra bank nümayəndələrini maraqlandıran suallar səslənib, mərkəzin nümayəndələri ilə birlikdə fikir mübadiləsi aparılıb.

# Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq səmərə verir

**Prezident İlham Əliyevin rəhbərliyi ilə cinayətkarlığa qarşı qəti mübarizə aparılaraq, bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Respublikamız cinayətkarlıqla qlobal mübarizədə fəal iştirak edərək cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sahəsində konvensiyalardan və ikitərəfli müqavilələrdən irəli gələn öhdəlikləri vicdanla yerinə yetirir.**

Ölkəmiz 50 dövlət tərəfindən ratifikasiya olunmuş "Ekstradisiya haqqında" 1957-ci il tarixli Avropa Konvensiyasının iştirakçısı olmaqla Ədliyyə Nazirliyi tərəfindən səlahiyyətli qurum kimi həmin dövlətlərlə, habelə MDB çərçivəsində müvafiq konvensiyalar üzrə səmərəli əməkdaşlıq edilir. Eyni zamanda, nazirlik tərəfindən cinayət törətmiş şəxslərin təslim edilməsinə - ekstradisiyasına dair bir sıra Asiya, Afrika və Ərəb dövlətləri ilə ikitərəfli müqavilələr bağlanılıb. Bütün bunlar cinayətkarların özünü təhlükəsizlikdə hiss etmələrinin qarşısını alan çox mühüm təsirli mexanizm olmaqla cəzanın labüdlüyü prinsipini təmin edir.

Bu sahədə səmərəli beynəlxalq əməkdaşlıq çərçivəsində ötən 5 il ərzində 160-dək cinayətkar şəxslərin Azərbaycana ekstradisiya edilməsinə nail olunub.

Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında imzalanmış ekstradisiya haqqında Sazişin implementasiyası çərçivəsində, özgənin əmlakını ələ keçirərək külli miqdarda ziyan vurmaqla əməl törətmiş və barəsində İnterpolun xətti ilə beynəlxalq axtarışa verilmiş şəxsin Azərbaycana ekstradisiyası ilə bağlı danışıqlar aparılıb, Ədliyyə Nazirliyinin Əlcəzair tərəfinə göndərdiyi sorğu təmin edilərək həmin şəxsin təslim edilməsinə razılıq verilib və o, nazirliyin əməkdaşlarının müşayiəti ilə bu günlərdə ölkəmizə gətirilib.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

# Vəkillər üçün təlim keçirilib





**Ədliyyə Akademiyasında Vəkillər Kollegiyasının üzvləri üçün "Məhkəmələrdə əmək qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlər" mövzusunda ixtisasartırma kursu keçirilib.**

25 nəfər vəkilin iştirak etdiyi təlimdə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri, ədliyyə naziri yanında İctimai Komitənin üzvü Sahib Məmmədov vəkillər qarşısında mühazirə ilə çıxış edib.

Kurs zamanı "Əmək mübahisələri və onların həlli mexanizmləri"," İşəgötürən və işçinin qarşılıqlı maddi məsuliyyəti, zərərin əvəzinin ödənilməsi, tam maddi məsuliyyət haqqında müqavilə" və "Əmək münasibətlərinin rəsmiləşdirilməsi və xitam verilməsi qaydaları"na aid mövzular tədris olunub.

# Ədliyyə işçiləri xüsusi qayğıya ehtiyacı olan uşaqlara baş çəkiblər



**Ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili işinə dövlət tərəfindən böyük diqqət göstərilir. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərtərəfli inkişaf strategiyası ölkə həyatının bütün sahələrini əhatə edir, o cümlədən cəmiyyətimizin kövrək təbəqəsi olan uşaqlara yüksək qayğı ilə yanaşılır, onların problemlərinin həlli istiqamətində konkret addımlar atılır.**

Azərbaycan dövlətinin bu istiqamətdə atdığı addımlara Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da olduqca böyük töhfələr verir. Fondun təşəbbüsü ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial müdafiəsi və reabilitasiyası, müasir infrastrukturların yaradılması üzrə məqsədyönlü işlər görülür.

Ədliyyə Nazirliyi tərəfindən nazirliyin Birləşmiş Həmkarlar İttifaqının xətti ilə xüsusi qayğıya ehtiyacı olan uşaqlara mütəmadi baş çəkilir, görüşlər keçirilir, xeyirxah tədbirlər, mədəni yığıncaqlar təşkil edilir.

Ədliyyə işçiləri paytaxtın 268 nömrəli xüsusi məktəbində olub, uşaqlarla görüşüb, onların qayğıları ilə maraqlanıblar. Həmçinin Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə uşaqlar üçün musiqili-əyləncəli proqram təşkil olunub. 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin kollektivi məktəbliləri sevindiriblər. Sonra uşaqlara hədiyyələr təqdim edilib.

Məktəbin rəhbərliyi və kollektivi daim dövlət qayğısı ilə əhatə olunan uşaqlar üçün belə bir tədbirin təşkil olunmasına görə Ədliyyə Nazirliyinə öz minnətdarlığını ifadə edib.

# 20 Yanvar hadisələri heç zaman yaddaşlardan silinməyəcək

**Nazim Abbasov,**
**Ədliyyə Nazirliyi İstintaq idarəsinin rəisi**

**1990-cı il 20 yanvar faciəsinin 30-cu ildönümü ərəfəsində bu hadisələrin həm şahidi olaraq, eyni zamanda peşə fəaliyyətimlə əlaqələr baş vermiş cinayət hadisəsi üzrə aparılan istintaq araşdırmalarının iştirakçısı kimi ictimaiyyət üçün maraqlı, həm də hüquqi-tarixi baxımından əhəmiyyət kəsb edəcəyini hesab etdiyim məqamların qələmə alınmasının vacib saydım.**

Bəli, Bakı şəhərinin çoxsaylı sakinlərindən biri kimi həmin gecənin dəhşətli vahiməsi hələ də gözümün önündədir və düşünürəm ki, heç vaxt silinməyəcək. Axı necə silinə bilər ki, sülhsevər, mehriban və qonaqpərvərliyi ilə seçilən və sevilən bir şəhərin günahsız dinc əhalisi bir gecənin ərzində vəhşicəsinə kütləvi qırğına və təcavüzə məruz qalmışdır.

Təcavüzkar nə azyaşlı uşaqlara, nə də ki köməksiz əliyalın qocalara, qadınlara və xəstə insanlara rəhm etmişdir.

Həmin gecə saat 24:00-da heç bir xəbərdarlıq olunmadan əvvəlcədən telestudiyanın enerji bloku partladılmaqla şəhərə qoşunların yeridilməsi o qədər gözlənilməz idi ki, çoxları anlamadılar ki, nə baş verir. Yalnız səhəri gün sakinlərdən kimisi küçəyə çıxarkən, kimisi isə pəncərələrdən baxarkən Bakı küçələrindəki dəhşəti görə bildilər.




Faciəvi tərəflərindən biri də ondan ibarətdir ki, mərkəzi rəhbərliyin bir millətə və xalqa qarşı törətdiyi bu qanlı cinayətə respublika rəhbərliyinin münasibəti adekvat olmadı, öz xalqının müdafiəsinə qalxmaq əvəzinə milli satqınlıq yolunu üstün tutdular.

Bir gecənin içində nəhəng bir dövlətin hər zaman vətəndaşlıq mənsubiyyəti ilə qürur duyan Azərbaycan Respublikasının vətəndaşları bu dövlətə, onun başında duranlara inamını itirmiş oldular. İllər boyu inandıqları, güvəndikləri dövlət onlara dönük çıxaraq sarsıntıya məruz qoymuş, əslində isə əsl xəyanətkarlıq etmişdir.

Sonralar həmin hadisələrlə bağlı başlanmış cinayət işinin istintaqının aparılması üçün yaradılmış istintaq qrupunun tərkibində fəaliyyət göstərərkən qaranlıq qalan bir çox məqamlara aydınlıq gətirilmişdir.

Dövlət rəhbərlərinin öz vətəndaşlarına necə xəyanət etmələri, bu zaman hansı üsullardan istifadə etmələri, vəhşicəsinə qanunlara məhəl qoymadan, heç bir zərurət olmadan dinc əhaliyə qarşı əli silahlı ordudan istifadə etməklə cinayət törətməkləri tam sübuta yetirilmişdir.

Müəyyən olmuşdur ki, 1987-ci ilin sonlarında Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yönələn radikal erməni millətçiləri tərəfindən ortaya atılan qondarma Dağlıq Qarabağ problemi qısa müddətdə yüz minlərlə azərbaycanlıların öz doğma yuvalarından qovulmasına, etnik təmizləmə və soyqırıma gətirib çıxardığından bu

qanunsuzluqlara və zorakılıqlara SSRİ rəhbərliyinin bilavasitə və dolayısı ilə dəstək verməsi, habelə Azərbaycanın o zamankı rəhbərlərinin cinayətkar qətiyyətsizliyi və milli maraqlara zidd addımları xalqımızı respublikanın ərazi bütövlüyünün qorunması naminə ayağa qalxmağa sövq etmiş, bu zəmində yaranmış xalq hərəkatının tədricən milli azadlıq hərəkatına çevrilməsinə zəmin yaratmışdır.

İstintaqla müəyyən olunmuşdur ki, keçmiş SSRİ rəhbərliyi SSRİ Konstitusiyasının 119-cu və Azərbaycan Respublikasının Konstitusiyasının 71-ci maddələrinin tələblərini kobud şəkildə pozaraq, Respublika Ali Sovetinin razılığı olmadan hər hansı bir ərazidə fövqəladə vəziyyətin tətbiq edilməsi qaydalarına tamamilə zidd olaraq əvvəlcədən bu barədə əhaliyə xəbərdarlıq etmədən, əksinə onların məlumatlanmasının qarşısını almaq məqsədilə telestudiyanın enerji blokunun 19 yanvar axşam saat 19:30 radələrində partladılmasını təşkil edərək, Bakı şəhərində kifayət qədər daxili qoşunların və sovet ordusunun hərbi hissələrinin kontingenti dislokasiya olunduğu halda sovet ordusu hissələrinin xüsusi təyinatlı dəstələrinin, daxili qoşunlarının əlavə olaraq iri kontingentinin iştirakı ilə və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbiçilərini cəlb etməklə yanvarın 20-nə keçən gecə şəhərimizdə hərbi təcavüz həyata keçirməklə, dinc əhaliyə divan tutulmuşdur.

Baş vermiş cinayətin əvvəlcədən planlaşdırılması və ədalətsizliyə qarşı səsini ucaltmış dinc əhaliyə divan tutulması, mənəvi cəhətdən sındırılması məqsədilə törədilməsi, əsgərlərin yaxın məsafədən insanları öldürməsi, cəsədlərinə çoxsaylı güllə yaraları, köməyə gələn təcili tibbi yardım avtomobillərinin güllələbaran edilməsi, qurulmuş barrikadalardan kənarda olan dinc sakinlərin vəhşicəsinə öldürülməsi, xüsusi amansızlıqla bıçaq və süngülərdən istifadə edilərək cəsədlərə xəsarətlər yetirilməsi ilə tam sübut olunur və təşkilatçıların məkrli niyyətlərindən bir daha xəbər verir.

Bu faciə nəticəsində 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər müxtəlif dərəcəli ağır bədən xəsarətləri almış, 841 nəfər kütləvi şəkildə qanunsuz həbs olunmaqla insan hüquqlarına dair çoxsaylı beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan hüquqları Bəyannaməsinin tələbləri kobud surətdə pozulmuşdur.

Hadisələrlə bağlı başlanmış cinayət işi üzrə bir sıra istintaq hərəkətləri Azərbaycan ərazisində aparıldıqdan sonra Azərbaycan Respublikası Baş Prokurorluğundan xüsusi tapşırıq qaydasında ezam olunmuş Rüstəm Usubovun rəhbərlik etdiyi istintaq qrupu Rusiya ərazisində istintaq hərəkətlərinin aparılması üçün icazə almağa müvəffəq olmuş və orada istintaq hərəkətlərinin həyata keçirilməsinə başlanılmışdır.

İstintaq qrupu üzvləri arasında aparılmış vəzifəsi bölgüsünə görə mənə keçmiş Kommunist Partiyası Mərkəzi Komitəsinin arxivində iş üçün əhəmiyyət kəsb edən sənədlərin müəyyən edilməsi və zəruri hallarda götürülməsi tapşırılmışdır.

Bir neçə gün gərgin işlərin nəticəsində çox vacib və əhəmiyyətli sənədlərin ortaya çıxmasına nail olmuşdum.

Qeyd etməliyəm ki, istintaq qrupu tərkibində Bakıda da fəaliyyət göstərərkən, mənə keçmiş Azərbaycan DTK-nin müəyyən sənədləri ilə işləmək tapşırıldığından Moskvadakı aşkar edilən sənədlərlə işləməyə əlverişli imkan yaranmışdır.

Aşkar etdiyim sənədlər (telefonoqramlar, şifroqramlar, eyni zamanda SSRİ rəhbərliyinə Azərbaycan rəhbərliyindən göndərilmiş şifroqramlar və s.) bir daha bu əməliyyatın əvvəlcədən planlaşdırılmış qaydada hazırlanmasını (Şimali Qafqazın Stavropol, Krasnodar, Rostov vilayətlərindən ehtiyatda olan hərbçilərin toplanılması haqda teleqram göstərişlər, səhiyyə və digər qurumlara hazırlıq siqnalları və s.) sübut edirdi ki, mərkəzin guya qoşunların Bakıya yeridilməsi qərarının qəfildən respublikada yaranmış çıxılmaz fövqəladə vəziyyətlə əlaqədar verildiyini tamamilə təkzib edirdi.

Bu xüsusatları istintaq zamanı dindirilmiş o dövrdə Mərkəzi Komitə və digər qurumlarda rəhbər vəzifələrdə işləmiş şəxslər də (Qirenko, Mixaylov, Rijkov və digərləri) öz ifadələrində təsdiq edirdilər.

Qrupun rəhbəri Rüstəm müəllim Usubov peşəkar istintaqçı idi, onun rəhbərliyi ilə qurulmuş istintaq taktikası, əldə olan sübutlardan məharətlə istifadə olunması nəticəsində aparılan istintaq hərəkətləri zamanı mötəbər sübut əhəmiyyətli ifadələr alınmışdır.

Dindirilmiş şəxslər hadisənin baş vermə mexanizmi, səbəbləri, cinayətkar qərarların verilməsinin təşkilatçıları barədə müfəssəl ifadələr vermişlər.

O vaxt respublikanın rəhbəri olmuş və hadisədən dərhal

sonra Azərbaycandan qaçmış Ə.Vəzirovu da böyük çətinliklə olsa, Azərbaycanın səlahiyyətli nümayəndəliyində dindirə bilmişdik.

Qeyri-ciddi davranışı ilə yadda qalan bir insanın ifadəsi də özünəməxsus tərzdə ciddilikdən uzaq idi, əsas mahiyyəti əks etdirən suallara "yadımda deyil" cavabını verirdi.

Rus millətindən olan keçmiş sovet rəhbərləri ondan fərqli olaraq dindirmələrdə daha səmimi idilər, onlar Bakı şəhərinə ordu hissələrinin bu şəkildə, yəni əhaliyə xəbərdarlıq edilmədən, vəhşicəsinə yeridilməsi qərarını qanunsuz və əsassız hesab edərək bu qərarın təşkilatçısının adını belə gizlətmirdilər.

Bu isə SSRİ hakimiyyətinə gəldiyi ilk anlardan millətimizə düşmən kəsilmiş, onun liderinə olan qısqanc xislətini gizlədə bilməyən, guya nəyi isə, əslində özünün də bilmədiyi, yenidən qurmağa çalışan, lakin heç bir şey qura bilməyən yalnız və yalnız dağıdıcı missiyasını yerinə yetirən M.Qorbaçov idi.

Bəli, bu adam millətimizdən sanki qisas alırdı, ancaq məlum deyil hansı səbəbdən nəyə görə və kimə görə, nə etmişdi axı bu millət ona, əslində heç kimə heç bir şey!

Növbəti iş gününün sonunda istintaq qrupu rəhbərinin keçirdiyi müzakirədə M.Qorbaçovu istintaqa ifadə vermək üçün dəvət etmək qərarına gəldik.

Onun dindirilməsinə yaxşı hazırlaşmışdıq. İfşaedici suallar, təkzibedilməz dəlil və sübutlarla səhəri səbirsizliklə gözləyirdik.

Rusiya prokurorluğunun bizə təhkim olunmuş əməkdaşına M.Qorbaçovun dindirilməsi zərurəti ilə bağlı qərarımızı bildirdikdə, o bir qədər özünü itirsə də sonradan razılaşaraq bizim iştirakımızla ona dindirilməsi üçün prokurorluğa dəvət olunması ilə bağlı zəng etdi (M.Qorbaçov o zaman artıq vəzifədə deyildi, yaratdığı fondun rəhbəri idi), cinayət-prosessual qanunvericiliyə istinad edərək prokurorluğa dəvət etdi və bildirdi ki, Bakıdan 20 Yanvar hadisələri ilə əlaqədar başlanmış cinayət işi üzrə istintaq qrupunun üzvləri gəliblər və onu dindirməlidirlər. Telefon xəttinin o biri tərəfində isə o, bu işdə onun heç bir iştirakının olmadığını, istintaqa gəlib ifadə verməkdən imtina etdiyini bildirirdi.

Ədalət naminə demək lazımdır ki, Rusiya prokurorluğunun əməkdaşı prosessual qanuna uyğun olaraq hətta ona istintaqa gəlməməsinin və ifadə verməkdən boyun qaçırmasının cinayət məsuliyyətinə səbəb olması barədə xəbərdarlıq da etdi, ancaq qanuna məhəl qoyulmadı.

Necə ki, həmin gecə dinc əhaliyə qanlı divan tutduğu zaman olduğu kimi. Bir az məyus olduq, həvəslə gözlədiyimiz istintaq hərəkətini apara bilməmişdik, böyük əziyyətlə topladığımız sübutları ehtimal olunan müqəssirə təqdim edə və təkzib edilməz dəlillərlə onu törətmiş olduğu cinayətdə ifşa edə bilməmişdik. Hətta bizi şərləməkdən belə çəkinməmişdir.

Keçmişdəki nüfuzu və əlaqələrindən istifadə edərək, bizim başqa dövlətin ərazisində guya qanunsuz istintaq hərəkətləri aparılmasında ittiham etməyə cəhd etdi. Onun bu hərəkəti tanış ssenari idi, cinayət törətmiş şəxslərin məsuliyyətdən yaxa qurtarmaq, istintaqdan yayınmaq üçün atdıqları addımlardandır.

Bəli, o vaxt onu dindirmək bizə nəsib olmadı, məsuliyyətdən yayına bildi. Ancaq tarix özü ən yaxşı hakimdir. Öz xalqı onu mühakimə etdi , satqın damğası vurdu.

Təskinliyi onda tapdıq ki, iş üzrə əldə etdiyimiz sənədləri qoruyub saxlaya bildik , tarix üçün sübut üçün.

Ulu Öndər Heydər Əliyevin Bakı şəhərində baş vermiş qanlı hadisənin səhərə günü Azərbaycan Respublikasının Moskvadakı nümayəndəliyinə gələrək həmişəki kimi qətiyyət göstərməklə Bakı şəhərinə yeridilmiş Sovet İttifaqının əlisilahlı və ağır artilleriyalı qurğularından ibarət olan hərbi birləşmələrinin əliyalın əhaliyə qarşı törətdiyi cinayətkar əməllərini qətiyyətlə pisləmiş və öz xalqına dayaq olmuşdur.

Azərbaycan xalqı isə sınmadı və bu sarsıntılardan mərdanə və başı uca çıxdı. Bundan başqa Azərbaycana yenidən rəhbərliyə qayıtdıqdan sonra məhz Ulu Öndərin təşəbbüsü ilə Bakı şəhərində baş vermiş 20 yanvar hadisələri o vaxtkı Ali Sovetdə müzakirəyə çıxarıldı və tarixin silinməz qanlı yaddaşına çevrilmiş bu hadisəyə siyasi-hüquqi qiymət verildi.

Bakı şəhərində baş vermiş həmin hadisədən sonra Azərbaycan xalqı öz müstəqilliyini, ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində qoruyub saxlaya bildi, nəinki saxlaya bildi bütün dünyada tanıtdı .

Azərbaycan Prezidenti İlham Əliyev bu tarixi missiyanı davam etdirərək bayrağımızı yüksəklərə qaldırdı, dünya ölkələrinin onunla hesablaşmasına nail oldu. Xalqımız bu hadisələrə siyasi - hüquqi qiymətini verdi. Şəhid olmuş bacı və qardaşlarımızı unutmadı, onların ruhunu yüksək tutaraq illər boyu qarşısında baş əydi.

# Hüzn, qəzəb və qürur günü

**Rauf Rzayev,**
**Ədliyyə Nazirliyinin əməkdaşı**
**tarix üzrə fəlsəfə doktoru**

**XX əsrdə törədilmiş ən qanlı hadisələr arasında 20 yanvar 1990-cı ildə Azərbaycanda törədilmiş qırğın insanlığa qarşı ən qəddar cinayət sayılır. Hadisələrdən 30 il keçməsinə baxmayaraq təcavüzə məruz qalmış xalqımız, həmin dəhşətli günlərin acılarını unutmur, təpədən dırnağa qədər silahlanmış sovet qoşunlarının köməyi ilə öz vətəndaşlarına divan tutmuş SSRİ imperiyasının rəhbərlərinə və onların əlaltılarına dərin nifrətini hər zaman bildirir.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" Sərəncam imzalamışdır. Dövlət başçısının Sərəncamına əsasən Azərbaycanda və ölkənin hüdudlarından kənarda anma mərasimləri keçirilir.

Azərbaycanın müasir tarixinə xalqımızın ən faciəli günlərindən biri kimi daxil olmuş 1990-cı il 20 yanvar günü eyni zamanda müstəqillik salnaməmizin qəhrəmanlıq səhifəsidir. Bu tarixi gün xalqımızın milli müstəqillik və azadlığı uğrunda möhkəm iradə və mübarizə simvolu olmuşdur.

Qara Yanvar hadisələri ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi fonunda yenidənqurma dövründə baş verdi. SSRİ-nin dağılması ərəfəsində öz çirkin planlarını reallaşdırmağa çalışan radikal erməni millətçiləri məqsədlərinə çatmaqda başda oyuncaq Qorbaçov olmaqla sovet rəhbərliyindən bacarıqla istifadə etdilər. Bu məqsədlə erməni planlarının həyata keçirilməsinə güclü mane olan Heydər Əliyevi siyasi büroda rəhbər vəzifəsindən uzaqlaşdırdılar. Qorbaçovun əli ilə kənarlaşdırılan Heydər Əliyev sovet rejimi qarşısında böyük maneə idi. Bu qərardan sonra erməni separatizminin əlləri açıldı və bütövlükdə erməni lobbisinin planlarına göz yumuldu. Bu hadisələr Azərbaycan xalqının siyasi şüurunun, özünüdərk prosesinin inkişafına mane ola bilmədi və Azərbaycan vətəndaşlarının öz ölkələrinin ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlığını nümayiş etdirdi. Qanlı Yanvar Bakıda müstəqilliyə can atan hər kəs üçün nümunə dərsi oldu.

1990-cı ilin 13 yanvarında Bakıda, həmin vaxt Leninin adını daşıyan meydanda Dağlıq Qarabağ və ətraf rayonlarda Azərbaycan əhalisinin təhlükəsizliyini təmin etmək iqtidarında olmadığına görə Azərbaycan Kommunist Partiyasının birinci katibi Əbdürrəhman Vəzirovun istefasını tələb edən mitinqə başlandı.

Yanvarın 17-də isə Ermənistanın Azərbaycana qarşı qanunsuz ərazi iddialarının dayandırılmasını tələb edən kütləvi mitinqə başlanıldı, Dağlıq Qarabağ və Azərbaycanın sərhədyanı rayonlarının ətrafında Sovet qoşunlarının cəmləşməsinə qarşı ümumxalq tətili elan olundu.

Bakı şəhərinə girişdə və Salyan kazarmaları qarnizonunun yerləşdiyi məkan

ətrafında avtomaşınlardan barrikadalar quruldu və piketlər təşkil olundu. Yaranmış mürəkkəb vəziyyətlə əlaqədar Sov. İKP MK-nın katibi A.Qirenko, SSRİ Ali Soveti ittifaq sovetinin sədri Y.Primakov, SSRİ-nin müdafiə naziri D.Yazov, quru qoşunlarının baş komandanı ordu generalı V.Varennikov və digər bir sıra yüksək rütbəli nümayəndələr təcili olaraq Bakıya gəldilər.

Bakıda və onun ətrafında SSRİ Daxili İşlər Nazirliyinin 12 min qoşunu cəmləşdirilmişdi. Əgər onlara "Naxçıvan" mehmanxanasında yerləşdirilmiş Daxili Qoşunların min nəfər hərbçilərini və Salyan kazarmalarında yerləşdirilmiş bir neçə min əsgər və zabitləri də əlavə etsək aydın olur ki, Bakıda gözlənilən hər hansı bir insidentin qarşısının alınması üçün lazım olduğundan qat-qat daha çox qüvvə var idi. Piketlərə gəlincə, onlar əslində keçilməz sədd deyildilər və simvolik xarakter daşıyırdılar.

Azərbaycanda əhali arasında narazılığın artmasından və siyasi fəallığın yüksəlməsindən qorxuya düşən Sovet hökuməti SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli xüsusi iclasında respublikada qoşunun yeridilməsi və fövqəladə vəziyyətin tətbiqi haqqında qərar qəbul etdi. Acımasız bir qərar...

Təxminən saat 19:00-da Bakıda aydın olmayan şəraitdə enerji bloku partladıldı. Respublikada teleradio yayımları dayandırıldı. Bunun nəticəsində informasiya qıtlığı yarandı.

1990-cı ilin 19 yanvarından 20-nə keçən gecə Sovet ordusu fövqəladə vəziyyət elan etmədən Azərbaycanda hərbi əməliyyatlara başladı. Bakıya SSRİ-nin Müdafiə Nazirliyinin, DTK-nın və Daxili İşlər Nazirliyinin qoşunları yeridildi. Silahsız insanlara hücum edilərək dinc əhaliyə qarşı amansız divan tutuldu. Qadınlar, qocalar, uşaqlar və hətta təcili yardım maşınları güllələbaran edildi. Tanklar və ZTR-lər içində insan olan minik maşınlarını amansızcasına altına salıb əzdilər. Xəstəxanalarda yaralılara tibbi yardım göstərmək imkanı olmasın deyə işıqlar söndürülmüşdü. Ağır zirehli texnika Salyan kazarmaları və indiki "20 Yanvar" metro stansiyasının yanındakı piketlərdə yerləşdirilən avtobusları və minik maşınlarını bir anın içində metal yığınına çevirdi. Hərbi əməliyyat nəticəsində yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü.

Sovet Ordu hissələrinin Bakıya yeridilməsi Azərbaycan üçün faciə oldu. Həmin vaxt mahiyyət etibarilə Moskva Azərbaycanı itirdi. 20 yanvarın dəhşətli gecəsində, 30 il bundan əvvəl, doğma yurdun və xalqın azadlığını, namusunu və şərəfini hər şeydən yüksək tutan Azərbaycanın vətənpərvər ruhlu oğul və qızları canlarını fəda edərək şəhidlik zirvəsinə ucaldılar.

22 yanvarda, Bakı əhalisi müstəqillik uğrunda mübarizədə qəhrəman kimi həlak olmuş faciə qurbanlarının, şəhid olmuş həmvətənlərimizin ümumxalq dəfninə çıxmışdı (sonradan, faciə qurbanlarının dəfn edildiyi yer Şəhidlər Xiyabanı adlandırıldı).

Həmin gün hava limanı, dəmir yolu, şəhərlərarası telefon rabitəsi işini dayandıraraq matəm boyu hər saat həyəcan siqnalları səsləndirirdilər. On minlərlə Azərbaycan vətəndaşı xalqın gözü qarşısında öz kommunist partiya biletlərini yandırırdılar. Hadisələrin bir çox fəalı həbs edilmişdi. Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov hələ ordunun yeridilməsindən əvvəl artıq Moskvaya qaçmışdı.

Azərbaycan üçün ən çətin və hüznlü gündə Azərbaycanın böyük oğlu Heydər Əliyev öz



xalqının çağırışına ilk cavab verən olmuşdur. Təbiətən prinsipial, dəmir iradəyə malik insan və əsl vətənpərvər olan Heydər Əliyev təqaüddə olaola, həmçinin daim üzərində Qorbaçovun nəzarətinin və təzyiq altında olmasına baxmayaraq öz xalqına qarşı həyata keçirilmiş cinayətlərə biganə qala bilmədi. Bir başqası bəlkə də o vaxt öz şəxsi, ailəsinin təhlükəsizliyi haqqında düşünərdi, lakin Heydər Əliyev üçün Azərbaycan xalqının maraqları əsas idi və o, baş verənlərə laqeyd qalmadı. Faciənin ertəsi günü o, özünü və ailə üzvlərini təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş və orada toplaşan soydaşlarımızın qarşısında mərkəzin hərəkətlərini kəskin tənqid etmişdir.

Heydər Əliyev açıq bildirmişdi ki, baş vermiş cinayətdə birbaşa mərkəzi hakimiyyət təqsirkardır. Azərbaycan xalqına qarşı həyata keçirilmiş təcavüzü, şəxsən SSRİ rəhbəri M.Qorbaçovu və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin pisləyərək ordunun Bakıdan təxirəsalınmadan çıxarılmasını tələb etmişdir. Heydər Əliyevin o zamankı çıxışı, onun həmin günlər xarici jurnalistlərə verdiyi müsahibələr olduqca cəsarətli addım idi.

Faktiki olaraq Heydər Əliyevin çıxışı Azərbaycan xalqını talançıların və qatillərin damğalarından qoruyan yeganə müdafiə silahı idi. Heydər Əliyev özünün bütün dünyada eşidilən səsini qaldırmışdır. Dünyanın bütün mətbuat orqanları onun mətbuat konfransındakı çıxışını yaymışdılar. Yalnız bu yolla həmin hadisələr bütün dünyaya məlum oldu, əks təqdirdə Sovetlər birliyi qapalı bir dövlət kimi bu faciəni əhəmiyyətli dərəcədə gizlədə bilərdi. Bunu yalnız ümummilli lider Heydər Əliyev bacara bildi.




20 yanvar hadisələrinə siyasi-hüquqi qiymətin verilməsi də məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra baş verdi.

Heydər Əliyevin Sərəncamına əsasən yanvarın 20-si həlak olanların xatirəsinə ümumxalq hüzn günü elan edildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Milli Məclisinə tövsiyə etdi ki, 20 yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilsin və 29 mart 1994-cü ildə Milli Məclis yanvar faciəsinə ilk dəfə olaraq dövlət səviyyəsində siyasi-hüquqi qiymət verən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Azərbaycanın müstəqilliyi və suverenliyi naminə həlak olanların xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 31 mart 1998-ci il tarixli Fərmanı ilə Qanlı Yanvar faciəsində həlak olmuş Azərbaycan vətəndaşlarına "20 yanvar şəhidi" fəxri adı verildi.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Bakının Yasamal rayonun "20 Yanvar" dairəsində faciə qurbanlarının xatirəsinə memorial ucaldıldı. Onun üzərində qızılı hərflərlə 20 yanvar faciəsində ölənlərin ad və soyadları həkk olundu.

Bu hadisələr nəinki Azərbaycan xalqını sındırmadı, hətta faktiki olaraq ölkənin gələcək inkişafını müəyyənləşdirdi. Artıq bir həqiqətdir ki, ölkəmiz yalnız Cənubi Qafqazda deyil, bütün post sovet məkanında ən uğurlu dövlətdir. Müasir zamanda XXI əsrin ikinci onilliyində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamız uğurla inkişaf edir və möhkəmlənir.

İllər keçsə də, Azərbaycan xalqı hər zaman həmin faciəli günlərdə öz həyatını ölkənin gələcəyi üçün fəda edənləri minnətdarlıqla xatırlayır. Hər birimizin qürur mənbəyinə çevrilmiş şəhidlərimizin xatirəsini daim uca tutur, xalqımızın tarixinin şərəfli səhifələri ilə fəxr edir. Allah şəhidlərimizə rəhmət eləsin!

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov (məruzəçi-hakim),

Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri Teyyub Muxtarov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Elnur Nuriyevin,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firuzə Abbasovanın,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İnqilab Nəsirov və Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəis müavini Mürvət Həsənovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7, 21, 25, 33, 141, 142 və 145-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60, 63, 71 və 125-ci maddələri baxımından şərh edilməsinə dair Gəncə Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 7, 21, 25, 33, 141, 142 və 145-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 60, 63, 71 və 125-ci maddələri baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 181-ci maddəsi ilə ittiham olunan R.Rzayev Gəncə Ağır Cinayətlər Məhkəməsinin 4 fevral 2019-cu il tarixli hökmü ilə həmin Məcəllənin 322.2-ci maddəsi ilə təqsirli bilinərək hər ay qazancının 20 faizi dövlət nəfinə tutulmaqla 2 il müddətə islah işləri cəzasına məhkum edilmişdir. Həmin hökmdən dövlət ittihamçısı tərəfindən verilmiş apellyasiya protestinin dəlillərindən biri ondan ibarət olmuşdur ki, R.Rzayevin əməlinə məhkəmə tərəfindən hüquqi qiymət verilərkən qrupun digər üzvü D.Əsgərovun Cinayət Məcəlləsinin 126, 181 və 221-ci maddələri ilə təqsirli bilinməsinə dair Bakı Ağır Cinayətlər Məhkə-

məsinin 13 iyun 2018-ci il tarixli hökmünün mövcudluğu nəzərə alınmamışdır. Belə ki, həmin hökmdə irəli sürülmüş ittiham üzrə D.Əsgərovun təqsirləndirildiyi cinayət əməlini yəni, Cinayət Məcəlləsinin 181.2.1 və 181.2.5-ci maddələri ilə nəzərdə tutulmuş quldurluq cinayətini R.Rzayevlə qabaqcadan əlbir olan qrup halında törətməsi qeyd edilərək D.Əsgərov 11 il altı ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin 20 avqust 2018-ci il tarixli qərarı ilə D.Əsgərov qəti olaraq 10 il müddətinə azadlıqdan məhrum edilmiş, Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 iyun 2018-ci il tarixli hökmü qalan hissədə dəyişdirilməmiş və qanuni qüvvəyə minmişdir.

Bununla əlaqədar müraciətedən qeyd edir ki, Bakı Ağır Cinayətlər və Bakı Apellyasiya Məhkəmələrində D.Əsgərovun barəsində olan cinayət işinə baxılarkən R.Rzayev təqsirləndirilən şəxs qismində iştirak etməsə də, həmin məhkəmələr tərəfindən həm müəyyən olunmuş hallara, həm də onlara verilmiş hüquqi qiymətə görə onun təqsirliliyinə birbaşa təsir edə biləcək məhkəmə qərarları qəbul edilmiş və qanuni qüvvəyə minmişdir.

Müraciətedənin qənaətinə görə, məsələ ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə Cinayət-Prosessual Məcəlləsinin preyudisiyaya həsr olunmuş 142.1-ci maddəsinin Konstitusiyanın 60 və 63-cü maddələri baxımından şərh edilməsi zəruridir.

Müraciətdə qaldırılan digər məsələ isə inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı əsasında müəyyən edilmiş verginin məbləği ilə cinayət işi üzrə birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş vergi məbləği arasında kəskin fərqin aşkarlanması ilə bağlıdır. Belə ki, bu fərq təqsirləndirilən şəxsin əməlinin cinayət qanunvericiliyinin müvafiq maddəsi ilə tövsifinə mühüm təsir göstərir.

Müraciətdən göründüyü kimi, Y.Hidayətov Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinə qarşı 30 mart 2015-ci il tarixli vergi yoxlaması aktı, eləcə də bu akt əsasında vergiödəyicisinin vergi məsuliyyətinə cəlb edilməsinə dair 5 may 2015-ci il tarixli qərarın etibarsız hesab olunmasına dair iddia tələbi ilə Gəncə İnzibati-İqtisadi Məhkəməsinə müraciət etmişdir.

Mübahisələndirilən aktlara əsasən, Y.Hidayətova ümumilikdə 776.114 manat məbləğində maliyyə sanksiyası tətbiq edilərək onun vergi məsuliyyətinə cəlb edilməsi qərara alınmışdır. Gəncə İnzibati-İqtisadi Məhkəməsinin 31 may 2015-ci il tarixli qərarı ilə Y.Hidayətovun iddiası təmin edilməmiş və həmin məhkəmə aktı qanuni qüvvəyə minmişdir.

Müraciətdə daha sonra göstərilir ki, istintaq orqanı tərəfindən irəli sürülmüş ittihama əsasən təqsirləndirilən şəxs Z.Hidayətov Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - Vergi Məcəlləsi) bir sıra maddələrinin tələblərini pozaraq, ümumilikdə, 847.104,54 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış və bununla da Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsində nəzərdə tutulmuş əməli törətmişdir.

Bərdə Rayon Məhkəməsinin 4 iyun 2018-ci il tarixli hökmü ilə isə Z.Hidayətov Cinayət Məcəlləsinin 213.1-ci maddəsində nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinərək 2 il müddətə dövlət və yerli özünüidarə orqanlarında rəhbər və maddi məsul vəzifə tutmaq hüququndan məhrum edilməklə, qazancının 20 faizi məbləğində pul dövlət nəfinə tutulmaqla 2 il müddətə islah işləri cəzasına məhkum edilmişdir. Bərdə Rayon Məhkəməsinin qeyd olunan hökmünə əsasən, Z.Hidayətov Vergi Məcəlləsinin bir sıra tələblərini pozaraq ümumilikdə 68.469,13 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışdır. Dövlət ittihamçısı tərəfindən həmin hökmdən apellyasiya protesti verilmişdir.

Müraciətedənin qənaətinə görə, Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsinin məzmunundan belə aydın olur ki, inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir. Gəncə Apellyasiya Məhkəməsi qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyən edilmiş vergi məbləği ilə cinayət işi üzrə icraat zamanı toplanmış sübutlar əsasında müəyyən edilmiş vergi məbləği arasında fərqlər yarandığı halda cinayət işinə baxan məhkəmənin Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsinin tələbinə müvafiq olaraq qanuni qüvvəyə minmiş məhkəmə qərarının məcburiliyini qəbul etməsinin cinayət işi üzrə təqsirləndirilən şəxsin

təqsirinin əvvəlcədən müəyyən edilməsinə səbəb olub-olmaması məsələsinə aydınlıq gətirilməsinin vahid məhkəmə təcrübəsinin formalaşdırılması baxımından məqsədəmüvafiq olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələlər ilə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, məhkəmə müdafiəsi müstəqil məhkəmə tərəfindən ədalətli məhkəmə araşdırması əsasında hüquqların səmərəli bərpa edilməsi kimi qəbul olunur. Ədalət mühakiməsi mahiyyət etibarilə ədalət anlayışına cavab verməli və pozulmuş hüquqların bərpa olunmasını təmin etməlidir (Konstitusiya Məhkəməsi Plenumunun S.Abbasovanın şikayəti üzrə 2016-cı il 14 oktyabr tarixli, F.Şirinovun şikayəti üzrə 2016-cı il 16 noyabr tarixli və s. qərarları).

Bu hüququn məzmunu Konstitusiyanın norma və prinsipləri, o cümlədən hüquqi müəyyənlik prinsipinin tələbləri nəzərə alınmaqla başa düşülməlidir. Həmin prinsipi təmin edən vasitələrdən biri qanuni qüvvəyə minmiş məhkəmə aktlarının preyudisiallığıdır.

Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarının preyudisiallığı, barəsində bu qərarın çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşdırılır və aşağıdakı hər üç şərtin mövcudluğu halında mümkün olur:

- konkret fakt bir iş üzrə cinayət prosesinin iştirakçısının iştirak etdiyi başqa bir iş üzrə çıxarılmış və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyən edilmiş olmalıdır;
- bu fakt hər iki iş üzrə sübutetmə predmetinə aid olmalıdır;
- hər iki işdə şəxsin hüquqi statusu eyni olmalıdır.

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeyinə görə, preyudisiya institutu məhkəmə aktlarına yenidən baxılmasının qarşısının alınmasına, məhkəmə təcrübəsində eyniliyin, sabitliyin və hüquqi müəyyənliyin təmin edilməsinə yönəlmişdir. Preyudisiallığı tənzim edən normalar sübut etmə prosesini sadələşdirməyə, işlərə baxılma müddətinin qısaldılmasına, məhkəmələrin, eləcə də məhkəmə prosesi iştirakçılarının vəsaitinə qənaət edilməsinə yönəlmişdir ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair" 2016-cı il 23 fevral tarixli Qərarı).

Qüvvəyə minmiş məhkəmə qərarlarının preyudisial əhəmiyyətinin tanınması üçün preyudisiallığın obyektiv və subyektiv hədlərinin məcmusu müəyyən edilməlidir. Konstitusiya Məhkəməsinin Plenumu mülki mübahisələr üzrə qüvvəyə minmiş məhkəmə qərarlarının preyudisiallığının hədləri ilə bağlı hesab etmişdir ki, preyudisiallıq prinsipi yalnız əvvəlki və ya sonrakı proseslərdə iştirak edən tərəflərə, işdə iştirak edən digər şəxslərə və onların hüquq varislərinə aid edilir ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair" 2016-cı il 23 fevral tarixli Qərar).

Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsinə əsasən, cinayət təqibi üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü cinayət təqibi üzrə icraatda həm müəyyən olunmuş hallara, həm də onların hüquqi qiymətinə görə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburidir. Həmin Məcəllənin 142.2-ci maddəsinə müvafiq olaraq, mülki iş, inzibati və ya iqtisadi mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə icraatda təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəməyə yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir və təqsirləndirilən şəxsin təqsirli olub-olmaması nəticəsini əvvəlcədən həll etmir.

Göründüyü kimi, qanunverici cinayət prosesində sahədaxili (Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsi) və sahələrarası preyudisiyanı (Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsi) müxtəlif cür müəyyənləşdirmişdir. Belə ki, cinayət prosesində sahədaxili preyudisiyanın tətbiqi zamanı qüvvəyə minmiş məhkəmə hökmündə müəyyən olunan hallar və onların hüquqi qiyməti sonrakı cinayət işləri üzrə icraatda məcburi olduğu halda, sahələrarası preyudisiyaya görə mülki, inzibati və ya iqtisadi işlər

üzrə qanuni qüvvəyə minmiş qərarlar yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir.

Digər tərəfdən Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsində preyudisiyanın subyektiv hədləri, yəni məhkəmə hökmünün qanuni qüvvəsinin şamil edildiyi şəxslərin dairəsi dəqiq müəyyən olunmamışdır.

Preyudisiyanın subyektiv hədləri cinayət prosesində tərəf olaraq məhkəmədə öz mövqeyini bildirən və həmin mövqeyin əsaslandırılması üçün sübutlarını təqdim edən şəxslərin dairəsi ilə müəyyən edilir. Subyektiv hədlərə daxil olan fiziki şəxslər prosessual təminatların maksimal həcminə malik olmalı və həmin şəxslər sübutetmə predmetinə daxil olan halların toplanmasına və qiymətləndirilməsinə təsir etmək imkanına malik olmalıdırlar.

Bu baxımdan qeyd olunmalıdır ki, qüvvəyə minmiş məhkəmə hökmünün preyudisiallığının həmin cinayət prosesində təqsirləndirilən şəxs statusunda iştirak etməyən şəxslərə şamil edilməsi sonuncuları cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilən təminatlardan, o cümlədən məhkəmə icraatında müdafiə (Konstitusiyanın 127-ci maddəsinin VIII hissəsi) və təqsirsizlik prezumpsiyası hüquqlarından (Konstitusiyanın 63-cü maddəsi) məhrum etməklə onların Konstitusiyanın 60-cı maddəsində təsbit edilmiş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi hüququnun pozulması ilə nəticələnə bilər.

Müraciətdə də göstərildiyi kimi, belə hallar əsasən iştirakçılıqla cinayət əməlinin törədilməsində təqsirləndirilən şəxslər barəsində aparılan cinayət təqibi üzrə icraatın ayrılması nəticəsində əmələ gəlir. Bu zaman ayrılan cinayət işi üzrə sübuta yetirilməli olan hallardan bir qismi digər cinayət işinə dair artıq qüvvəyə minmiş məhkəmə hökmü ilə təsbit edilmiş hallarla üst-üstə düşə bilər.

Qüvvəyə minmiş hökmlə müəyyən olunmuş halların və onlara verilən hüquqi qiymətin ayrılmış cinayət işi üzrə təqsirləndirilən şəxsə münasibətdə məcburiliyi faktiki olaraq onun barəsində məhkəmə hökmü qüvvəyə minənədək təqsirli olub-olmaması məsələsini əvvəlcədən həll edə bilər. Burada nəzərə almaq lazımdır ki, Konstitusiyanın 63-cü maddəsinin I hissəsinə əsasən, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

Yuxarıda göstərilən konstitusiya müddəasının mənasına görə, cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydalara riayət olunmadan heç kəs təqsirli sayıla bilməz. Həmin prosessual qaydaların vacib hissəsini təqsirləndirilən şəxsin sübutların tədqiq olunmasında iştirakına dair normalar təşkil edir.

Həmçinin nəzərə almaq lazımdır ki, cinayət-prosessual qanunvericiliklə sübutların toplanılmasına, yoxlanılmasına və qiymətləndirilməsinə dair təsbit edilmiş müddəalar işin həqiqətə uyğun olan faktiki hallarının müəyyənləşdirilməsinə xidmət etməklə yanaşı, həm də şəxsiyyətin hüquqlarına aid vacib prosessual təminatlar kimi çıxış edir. Göstərilən təminatlar sisteminə isə Konstitusiyadan irəli gələn cinayət mühakimə icraatının vacib prinsiplərindən hesab edilən təqsirsizlik prezumpsiyası, cinayət işi üzrə sübutetmənin ittiham tərəfinin üzərinə qoyulması, müdafiə hüququ və s. aiddir. Onlara riayət olunması cinayət işi üzrə icraatın aparılması zamanı qanunçuluğun təmin edilməsinin ayrılmaz şərtini təşkil edir.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, müraciətdə qaldırılan məsələnin yaranması səbəblərindən biri də Cinayət-Prosessual Məcəlləsinin 50 və 211-ci maddələrinin düzgün tətbiq edilməməsi ilə bağlıdır.

Cinayət-Prosessual Məcəlləsinin 50.1-ci maddəsi müstəntiqə, prokurora, hakimə cinayət təqibi üzrə icraatı ayırmaq hüququ verməklə yanaşı, bu cür ayırmanın mümkün olduğu şərtləri də müəyyənləşdirir. Qeyd olunan maddədə nəzərdə tutulmuş qaydanın müəyyən edilməsi prosessual qənaət məqsədi güdsə də, mütləq şərt kimi cinayət işləri üzrə ayrıca icraatların cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə manеə olmamasını da nəzərdə tutur.

Həmçinin Cinayət-Prosessual Məcəlləsinin 211-ci maddəsi cinayət işlərinin birləşdirilməsi və cinayət işinin materiallarından başqa cinayət işinin ayrılması şərtlərini və qaydasını müəyyən edir. Cinayət-Prosessual Məcəlləsinin

211.3-cü maddəsinə əsasən, bu Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduqda başqa cinayət işi ayrıla bilməz.

Cinayət-Prosessual Məcəlləsinin 50.3-cü maddəsi həmin Məcəllənin 9.1.3 və 211-ci maddələri ilə əlaqəli şəkildə cinayət işinin ayrıca icraata ayrılması barədə qərar qəbul edərkən müstəntiq, prokuror və hakimin üzərinə müvafiq hüquqi və faktiki əsasların göstərilməsi vəzifəsini qoyur. Cinayət işinin ədalətli həlli üçün bu cür qərar onun qəbul olunmasının vacibliyini təsdiq edən və iş materiallarında öz əksini tapmış konkret hallara, həmçinin maddi və prosessual hüquq normalarına əsaslanmaqla qəbul edilməlidir.

Müraciətdə qaldırılan məsələyə dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra - Avropa Məhkəməsi) təcrübəsi də diqqətəlayiqdir. Belə ki, Avropa Məhkəməsinin presedent hüququna əsasən, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya (bundan sonra - Konvensiya) cinayət işi üzrə hüquqi prezumpsiyaların və faktların prezumpsiyalarının istifadə edilməsini qadağan etmir, lakin dövlətlərdən təqsirləndirilən şəxs üçün işin nəticəsinin vacibliyinin nəzərə alınmasını və onun müdafiə hüququnun təmin edilməsi məqsədi ilə belə istifadənin ağlabatan hədlərlə məhdudlaşdırılmasını tələb edir *(Salabiaku Fransaya qarşı iş üzrə 1988-ci il 7 oktyabr tarixli Qərar, § 28; Radio France və digərləri Fransaya qarşı iş üzrə* 2004-cü il 30 mart tarixli Qərar, § 24).

Avropa Məhkəməsi bir sıra qərarlarında qeyd etmişdir ki, təqsirsizlik prezumpsiyasına və şahidlərin dindirilməsinə təminat verən Konvensiyanın 6-cı maddəsinin 2-ci və 3(d)-cü bəndləri, həmin maddənin 1-ci bəndi ilə təsbit olunmuş ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissələrini təşkil etməklə, ümumilikdə, məhkəmə araşdırmasının ədalətliliyinin qiymətləndirilməsi zamanı nəzərə alınmalıdır *(Böyük Palatanın Gafgen Almaniyaya qarşı iş üzrə* 2010-cu il 1 iyun tarixli Qərar; *Al Khawaja və Tahery Birləşmiş Krallığa qarşı iş üzrə* 2011-ci il 15 dekabr tarixli Qərar).

Avropa Məhkəməsi həm də hesab etmişdir ki, bir neçə şəxsin iştirakı ilə törədilən mürəkkəb cinayət işinin eyni icraatda aparılması mümkün olmadıqda, təqsirləndirilən şəxslərin təqsiri məsələsini həll etmək məqsədi ilə məhkəmə, cinayətin törədilməsində iştirak edən və sonradan ayrıca mühakimə ediləcək üçüncü şəxslərin adlarının çəkilməməsini tələb edə bilər. Cinayət işlərinə baxan məhkəmələr, təqsirləndirilən şəxslərin hüquqi məsuliyyəti ilə əlaqədar məsələni daha dolğun və dəqiq həll etmək üçün vacib olan işin hallarını müəyyən etməyə borcludurlar və müəyyən olunmuş hallar barəsində, sadəcə, mülahizə və ya şübhə kimi bəhs edə bilməzlər. Bu, həmçinin üçüncü şəxslərin iştirakçılığı ilə əlaqədar hallara da aiddir. Lakin bu halların qeyd olunması vacib olduqda, məhkəmə təqsirləndirilən şəxsin hüquqi məsuliyyətinin həll olunması üçün labüd olmayan dəlilləri təqdim etməkdən çəkinməlidir. Bu baxımdan məhkəmə qərarlarının tərtibatında digər iş üzrə məhkəmə araşdırmasının ədalətliliyini şübhə altına qoymamaq üçün üçüncü şəxslərin təqsiri ilə əlaqədar ilkin mülahizələrdən çəkinmək lazımdır *(Karaman Almaniyaya qarşı iş üzrə* 2014-cü il 27 fevral tarixli Qərar, § 64 65).

Eyni zamanda, Avropa Məhkəməsi qeyd etmişdir ki, irəli sürülmüş ittihamın xarakteri məhkəməyə üçüncü şəxslərin iştirakçılığına dair gəldiyi qənaətə toxunmamağa imkan vermirsə və bu qənaət ayrıca mühakimə ediləcək üçüncü şəxslərin hüquqi məsuliyyətinə dair qərara təsir edə bilərsə, belə hal işin ayrıca icraata ayrılması üçün ciddi maneə kimi qiymətləndirilməlidir. Ümumi hallar baxımından bir-biri ilə sıx əlaqəli olan işlərə ayrılıqda baxılmasına dair istənilən qərar bütün toqquşan maraqların hərtərəfli təhlilinə əsaslanmalı və digər təqsirləndirilən şəxslərə işin ayrıca icraata ayrılmasına etiraz etmək imkanı təqdim edilməlidir. Ayrıca icraatın aparılması ilə əlaqədar ikinci tələb isə onu nəzərdə tutur ki, digər təqsirləndirilən şəxslərin iştirakı olmadan müəyyən edilmiş hallar, həmin şəxslərə münasibətdə preyudisial əhəmiyyət kəsb etməməlidir. Bir iş üzrə istifadə olunmuş sübutların statusu sırf nisbi qalmalı, onların qüvvəsi mövcud konkret mühakimə icraatı ilə məhdudlaşmalıdır (2016-cı il 23 fevral tarixli Qərar, 46632/13 və 28671/14, §104-105).

Müraciətdə qaldırılan digər məsələ ilə əlaqədar Konstitu-

siya Məhkəməsinin Plenumu bir daha qeyd etməyi vacib hesab edir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının preyudisiallığı işdə iştirak edən şəxslərin dairəsi ilə məhdudlaşdırılır. Müraciətin məzmunundan göründüyü kimi, Gəncə İnzibati-İqtisadi Məhkəməsinin icraatında olan inzibati iş üzrə iddiaçı qismində Y.Hidayətov çıxış etdiyi halda, sonradan Bərdə Rayon Məhkəməsinin icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində başqa şəxs - Z.Hidayətov cəlb olunmuşdur. Bu, preyudisiyanın mövcud olmamasına dəlalət etməklə, yuxarıda göstərilən hüquqi mövqeyə müvafiq olaraq Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsinin tətbiqini istisna edir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur. Qanuni qüvvəyə minmiş məhkəmə hökmünün preyudisiallığı, həmin hökmün çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşır;

- Konstitusiyanın 60-cı maddəsinin I hissəsi, 63-cü maddəsi və 127-ci maddəsinin VIII hissəsinin tələbləri baxımından Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsinin müddəaları cinayət təqibi üzrə təqsirləndirilən şəxsə münasibətdə o halda şamil edilir ki, həmin şəxsin təqsirliyi və ya təqsirsizliyi məhkəmə müdafiəsi hüququndan irəli gələn təminatlara riayət edilməklə digər əlaqəli cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyən edilmiş olsun;

- Cinayət-Prosessual Məcəlləsinin 50 və 211-ci maddələrinin tələblərindən irəli gələrək cinayət təqibi üzrə icraatı ayırmaq qərarı verən müstəntiq, prokuror və ya hakim bu cür ayrılmanın mümkün olduğu şərtləri müəyyənləşdirməli, bu qərarın müvafiq hüquqi və faktiki əsaslarını göstərməli, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduğu hallarda belə ayırmadan çəkinməlidirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur. Qanuni qüvvəyə minmiş məhkəmə hökmünün preyudisiallığı, həmin hökmün çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşır.

2. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsi, 63-cü maddəsi və 127-ci maddəsinin VIII hissəsinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsinin müddəaları cinayət təqibi üzrə təqsirləndirilən şəxsə münasibətdə o halda şamil edilir ki, həmin şəxsin təqsirliyi və ya təqsirsizliyi məhkəmə müdafiəsi hüququndan irəli gələn təminatlara riayət edilməklə digər əlaqəli cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyən edilmiş olsun.

3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 50 və 211-ci maddələrinin tələblərindən irəli gələrək cinayət təqibi üzrə icraatı ayırmaq qərarı verən müstəntiq, prokuror və ya hakim bu cür ayrılmanın mümkün olduğu şərtləri müəyyənləşdirməli, bu qərarın müvafiq hüquqi və faktiki əsaslarını göstərməli, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduğu hallarda isə belə ayırmadan çəkinməlidirlər.

4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

5. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 8 yanvar 2020-ci il*